İctimai hüquq düşüncəsinin məzmununun həcmində də mühüm fərqlər vardır. Məlumdur ki, iqtisadiyyat, mülkiyyət formaları inkişaf etdikcə hüquqi tənzimlənməyə ehtiyacı olan yeni-yeni ictimai münasibətlərin yaranmasında və bu zaman digər münasibətlərin bu şəkildə nizamlanmasının zəruriliyinin aradan qalxmasında ifadə olunan ictimai həyatın daimi mürəkkəbləşməsi baş verir. Müasir tarixi mərhələdə ictimai həyat ictimai və fərdi hüquq düşüncəsinin təsir obyekti və inikası predmeti kimi müxtəlif ictimai münasibətlərin mürəkkəb çulğalaşmasını və qarşılıqlı əlaqəsini özündə əks etdirir. Bütövlükdə bu münasibətlərin məcmusu öz inikasını yalnız ictimai hüquq düşüncəsində tapmır. Bununla belə, sonuncu təbii ki, bu münasibətlərin bütün təzahürlərini hərfən əks etdirmir, o konkretikadan və mövcud olmayan təzahürlərdən təcrid olunmuşdur və ən ümumi, yalnız cəmiyyətin ayrı-ayrı nümayəndələrinin deyil, onun bütün üzvlərinin maraqlarına uyğun olanları əks etdirir.

Fərdi hüquq düşüncəsi ilə bağlı məsələ bir qədər başqa məna daşıyır. Burada insanın şəxsi həyatı  ilə bağlı ictimai münasibətlərin yalnız ayrı-ayrı tərəfləri əks olunur. İctimai hüquq düşüncəsi qrupun əqli fəaliyyətinin nəticəsi kimi bu və ya digər insanın fərdi hüquq düşüncəsinə qismən daxil edilir. Ona görə də fərdi hüquq düşüncəsinin məzmunu müəyyən mənada, bilavasitə öz həcminə görə ictimai hüquq düşüncəsi ilə müqayisədə məhduddur.

Hər bir insan onun həyati fəaliyyəti üçün bu və digər hadisələrin – ilk növbədə ictimai fəaliyyət və ünsiyyət kimi həyatın mühüm tərəflərinin

əhəmiyyətlilik dərəcəsindən asılı olaraq onu əhatə edən gerçəkliyə özünəməxsus şəkildə reaksiya verir. Bütün bunlar təbii olaraq ona gətirib çıxarır ki, birincisi, ayrı-ayrı insanlar tərəfindən əldə edilən hüquqi informasiyanın həcmi heç də eyni olmur, ikincisi, fərdi və ictimai hüquq düşüncəsində öz əksini tapmış hüquqi bilgilərin həcmi mühüm dərəcədə fəqlənir. Əgər bu zaman fərdi hüquq düşüncəsinin zaman və məkan baxımından məhdudluğu nəzərə alınsa, onda ictimai və fərdi hüquq düşüncəsinin məzmununun həcmindəki uyğunsuzluğu daha aydın başa düşmək olar.

İctimai və fərdi hüquq düşüncəsi arasında müəyyən fərqləri onların əsas funksiyalarının tədqiqi zamanı da sezmək olar. Məlumdur ki, hüquq düşüncəsinin vacib praktiki funksiyası insan davranışının tənzimlənməsi hesab edilir. Bununla belə ictimai və fərdi hüquq düşüncəsi bu funksiyanı müxtəlif şəkildə reallaşdırırlar. Belə ki, ictimai hüquq düşüncəsi hüquq normalarının ideya mənbəyi qismində çıxış edir. Fərdi hüquq düşüncəsi isə insanın davranışının nizamlayıcısıdır və konkret şəraitə müvafiq olaraq onu öz davranışını ya hüquq normaları ilə uyğunlaşdırmağa, yaxud da onlardan yan keçməyə sövq edir.

Hüquq düşüncəsi insanların mənəvi yaradıcılığının məhsuludur. Özünün kökləri ilə fərdlərin həyat fəaliyyətinə nüfuz edən bu mənəvi yaradıcılıq onların mənəvi sahəsinin qanunauyğun törəməsi qismində çıxış edir və onların fikirlərində və hisslərində öz təzahürünü tapır. Sonuncular isə şəxsdə təsadüfən yaranmırlar, zərurət olaraq şəxsiyyətin mənəvi həyatının obyekti, materialı qisminə çıxış edən müvafiq ictimai mühitdən irəli gəlirlər.

İctimai hüquq düşüncəsinin fərdlərin aktiv mənəvi yaradıcılığının nəticəsində təşəkkül tapmasına və onların mənəvi fəaliyyətinin məhsulu olmasına baxmayaraq, o, keyfiyyət nöqteyi-nəzərindən yeni hadisədir. Bu hadisəyə yalnız müvafiq sosial birliyin əhvali-ruhiyyəsi üçün tipik və səciyyəvi olan və qrupun, bütövlükdə cəmiyyətin köklü maraqlarını daha tam və adekvat şəkildə əks etdirən şeylər daxildir.

"İctimai, yaxud kütləvi hüquq düşüncəsi hüquq düşüncəsinin ən mücərrəd ifadə formasıdır. Bu, bütövlükdə həmin cəmiyyət üçün səciyyəvi olan hüquqi ideyaların, baxışların, nəzəriyyələrin, hisslərin, emosiyaların, əhvali-ruhiyyələrin və yaşantıların mədəni-milli inkişaf xüsusiyyətlərinin birliyinin əsasında tarixən təşəkkül tapan sistemidir. Bu, həmin xalqa xas olan və onun həm konkret tarixi zaman çərçivəsində, həm də dövlət hüdudlarında formalaşan hüququn qiymətləndirilməsinin və rasional-psixoloji baxışların vəhdətidir" (39, 15).

İctimai hüquq düşüncəsinin formalaşmasında şəxsiyyətin rolunun təhlili zamanı bu sosial təzahürün mürəkkəb quruluşunu nəzərə almaq lazımdır. Adi şüur səviyyəsində hüquqi göstərişlərin yaradıcısı bu və ya digər sosial birliyə məxsus olan insanların dairəsidir. Həmin insaların şüurunda

müəyyən ictimai mühitin inikası nəzəri ümumiləşdirmələr səviyyəsinə qədər ucalmır. Buradakı xarici faktorlar, əlaqələr və münasibətlər, gündəlik mövcudluq şəraitləri bilavasitə maraqlar və onlar tərəfindən şərtləndirilən fəaliyyət məqsədləri nöqteyi-nəzərindən öz məzmununu dəyişirlər.

İnsanların praktiki fəaliyyətində fərdi hüquq düşüncəsi ilə yanaşı, ümumi əhəmiyyətliyin kortəbii seçimi, təsadüfi, tipik olmayanın, sırf fərdi səciyyə daşıyan halların kənarlaşdırılması yolu ilə ictimai hüquq düşüncəsinin formalaşması da baş verir. İctimai şüurun adi səviyyədə formalaşması özü kortəbii səciyyə daşıyır. Burada ayrı-ayrı insanların iştirakının izləri tədricən silinir. Ayrı-ayrı fərdlərin hüquqi təsəvvürlərində və yaşantılarında tipik və ümumi əhəmiyyət kəsb edən baxışlar və hisslər – qanuna və məhkəməyə hörmət, qanunla təsbit olunmuş hüquqi gerçəkliyə inam, cəmiyyətdə təşəkkül tapmış müvafiq davranış qaydalarına riayət edilməsinin vacibliyi və s. formalaşır.

Peşəkar hüquq düşüncəsinə gəldikdə isə, onu hüquqşünaslıq peşəsinin nümayəndələrinin xidməti sahələrində davranış motivlərini və həyat tərzini müəyyən edən dəyəri oriyentasiyaların, hüquqi ideyaların, baxışların, hisslərin sosial rolun və hüquqi fəaliyyətin spesifikası ilə şərtləndirilən peşəkarcasına formalaşdırılmış sistem kimi müəyyən etmək olar.

Hüquqşünasların peşəkar şüurunun tədqiqi hüquq düşüncəsinin yeni cəhətlərini aşkar etməyə imkan verir. Peşəkar-hüquqi sahədə şüurun elementləri "ikiqat" hüquqi çalarlara malikdirlər. Belə ki, burada söhbət fərdlərin, sosial qrupların hüquqi hadisələrə, qanunçuluğa, hüquqi təsisatların praktikasına münasibətdən gedir. Bununla yanaşı, bu halda hüquqi hadisələrə münasibət hüquqi mühitdə fəaliyyət göstərən, peşəkar hüquqi hazırlığa malik, hüquqi gerçəkliyin dəyişdirilməsi ilə gündəlik təmasda olan şəxslərdə formalaşır.

Peşəkar hüquq düşüncəsinin formalaşmasına hüquqşünasın hüquq münasibətlərinin hansı sahəsində (məsələn, mülki-hüquqi, cinayət-hüquqi və s.) çalışması da təsir edir. Hüquqşünasların hüquq düşüncəsinin mahiyyəti və xüsusiyyəti hüquqi ideologiyanın məzmununda və hüquqi psixologiyada, sözügedən peşəkar qrupa xas hüquqi biliklər, təsəvvürlər, göstərişlər, dəyərlər sistemində konkretləşir. Hüquqşünasların hüquq düşüncəsi nəzəri olmalıdır. Ənənəvi olaraq hüquqşünasları ideoloji "təbəqə"yə daxil edirlər.

Peşəkar hüquq düşüncəsi cəmiyyətin hüquqi inkişafının tələbatlarına istiqamətlənən hüquqşünasların dəstəvi şüurunun bütöv sistemidir. Peşəkar hüquq düşüncəsinin növ fərqləri tipik hüquqi peşənin nümayəndələrinin zehinlərində təşəkkül tapan hüquqi istiqamətlərin xüsusiyyətləri ilə xarakterizə olunur.

Hüquqşünas üçün hüquqi hazırlıq, təbii ki, müəyyən əhəmiyyətə malikdir. Onların hüquq normaları və prinsiplərinə dair bilikləri dərin, formal

xarakteri və həcmi ilə fərqlənməli, başlıcası isə hüquqşünaslar bu bilikləri tətbiq etmək bacarığına malik olmalıdırlar.

Hüquqşünasların hüquq düşüncəsinin onların dəstəvi şüurunun səviyyəsindən asılılığı, fikrimizcə, onun formalaşması ilə bağlı olan işdə kifayət qədər nəzərə alınmır. Hüquqşünaslıq peşəsində çalışanların çətinlikləri əksər hallarda onların ümumi mədəniyyətinin aşağı səviyyəsi ilə, görüş dairəsinin məhdudluğu ilə şərtləndirilir. Təəssüflə qeyd edilməlidir ki, bu çatışmazlıq bəzən hüquqşünas kadrların hazırlığı və ixtisasının artırılması prosesində daha da dərinləşir. Bu mənada hakimlərə dair Hakimlərin Etik Davranış Qaydaları (Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə təsdiq edilmişdir) 15-ci maddəsinin tələbi önəmli hesab edilməlidir. Həmin maddəyə əsasən “hakim ədalət mühakiməsinin həyata keçirilməsi üçün zəruri olan nəzəri və təcrübi bilik səviyyəsini daim inkişaf etdirməlidir” (6). Bu da tam məntiqidir. Belə ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 25.3-cü maddəsinə əsasən “hakimlər və andlı iclasçılar cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları məhkəmə iclasında cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquq düşüncəsi ilə həll edirlər”(3).

Praktiki sahədə çalışan hüquqşünaslar, bir qayda olaraq, ədəbiyyat, incəsənət, müasir elmin nailiyyətləri haqqında məhdud biliklərə malikdirlər. Hüquq düşüncəsi onların şüurunda əsasən peşəkar keyfiyyətlərlə ifadə olunur və bu səbəbdən hüquq düşüncəsinin ən inkişaf etmiş forması kimi çıxış edir. Bu, onun hüquqşünasların şüurunun digər formaları ilə qarşılıqlı fəaliyyətinin xüsusiyyətlərində də özünü büruzə verməyə bilmir və xüsusən də, peşəkar şüurun üstünlüyə malik olmasında, bir sıra digər formaların sferasının daralmasında, hüquqi miqyasda qeyri-hüquqi hadisələrin ölçülməsi və qiymətləndirilməsinə cəhdlərdə ifadə oluna bilər.

Hüquqşünaslara xas peşəkar hüquq düşüncəsinin təhlili təsdiq edir ki, onların hüquq düşüncəsi sabit müsbət xarakterdə təzahür edir. Eyni zamanda onların düşüncəsinin deformasiyası daha neqativ xarakter daşıyır. Onların düşüncəsində qanunçuluğun və məqsədəuyğunluğun qarşı-qarşıya qoyulmasında, “işin maraqları naminə” qanunçuluğun pozulmasına imkan verilməsində, şəxsiyyətin hüquq, azadlıq və qanuni maraqlarının rolu və əhəmiyyətinin azalmasında ifadə olunan ikiləşmə və daxili ziddiyyət halı mövcud olur. Beləliklə, hüquqi sferada hüquqşünasların şüuru subyektiv amillərin təsiri nəticəsində düzgün istiqamət almadığı halda özünün əksinə çevrilə bilər.

Bütövlükdə hüquqi ədəbiyyatda hüquq düşüncəsinin anlayışı haqqında mövcud yanaşmaların yekunu ortaya belə bir ümumiləşdirilmiş fikri qoyur ki, hüquq düşüncəsi hüquqi biliklər və hüquqa, hüququn realizəsi praktikasına qiymətləndirici münasibətlər, hüquqi əhəmiyyət kəsb edən hallarda

insanların davranışını tənzimləyən sosial-hüquqi göstərişlər və hamılıqla qəbul olunmuş dəyərlər formasında hüquqi gerçəkliyi əks etdirən şüur sahəsidir. Hüquq düşüncəsinin təbiətini müəyyənləşdirmək üçün onun yalnız ictimai şüurun digər formalarından fərqliliyini ortaya çıxarmaq deyil, həm də başlanğıc kateqoriya olan «hüquq»un özündən fərqini göstərmək zəruridir.

Hüquq düşüncəsindən fərqli olaraq hüquq yalnız dövlət tərəfindən müəyyən edilən, qanunda öz əksini tapmış və hüququn müxtəlif formalarında təsbitlənən ideyaların məcmusu qismində deyil, həm də hüquq münasibətlərinin müəyyən sistemi kimi də izah olunur.

Bu fərqlər çərçivəsində hüquqla hüquq düşüncəsi arasında qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Belə ki, hüquq və hüquq münasibətlərinin sistemi hüquq düşüncəsinin əsası qismində çıxış edirlər, çünki məhz qüvvədə olan hüquq sisteminin bazasında başlıca olaraq hüquq və vəzifələr haqqında, qanunçuluq, ədalət və ədalətsizlik barədə, bu və ya digər hüquq normalarının məqsədyönlülüyü olub-olmaması haqqında insanların baxışları formalaşaraq ərsəyə gəlir. Lakin belə qarşılıqlı fəaliyyət hüquq və hüquq düşüncəsi arasında mühüm keyfiyyət dəyişikliklərini aradan qaldırmır.

Hüquq düşüncəsinin digər xüsusiyyəti onun müvafiq hüquq normalarının tətbiqi vasitəsilə realizə edilə bilməsində öz təcəssümünü tapır. Bu isə o deməkdir ki, hüquq düşüncəsi yalnız hüququn vasitəsilə iqtisadi və digər münasibətlərə təsir göstərə bilər, ideoloji təsirə məruz qala və dövlətin məcburetmə qüvvəsinə əsaslana bilər. Məsələn, dövlət incəsənət sahəsinə senzura metodlarını tətbiq etməklə, dini məsələlərə isə dini təşkilatların fəaliyyətini tənzimləməklə böyük təsir göstərmək imkanına malikdir.

**ƏDƏBİYYAT**


1. Məlikova M.F. Hüquq nəzəriyyəsi. - Bakı: Elm və təhsil, - 2022, - 448 s.
2. Тихомиров Ю.А. Правовое сознание в условиях социальной динамики Государство и право, - 2020, - № 3, - с.37-47.
3. Новая философская энциклопедия: в 4-х т. Т.III. - Москва: Мысль, - 2010, - 696 с.
4. Марченко М.Н. Проблемы общей теории государства и права. В 2-х т. Т.1. Государство. Изд. 4-е, перераб. и доп. - Москва: Норма:Инфра-М., - 2016, - 576 с.
5. Xropanyuk V. N. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik. - Bakı: MVM mətbəəsi, - 2013, - 247 s. ( rus dilindən tərcümə).
6. Конституция Российской Федерации. Энциклопедический словарь / В.А.Туманов, В.Е.Чиркин, Ю.А.Юдин и др. 2-е изд., перераб. и доп. - Москва: Большая Российская энциклопедия, - 1997, - 320 с.
7. Лупарев Г.П. К вопросу о правовом нигилизме //Государство и право, - 2020, - № 4, - с.68-75.

## ТИПЫ ПРАВОВОГО СОЗНАНИЯ


**И.Х.ДЖАФАРОВ**



### РЕЗЮМЕ

В статье, в первую очередь, отмечается, что правосознание представляет собой сферу сознания, отражающую правовую действительность в форме регулирующих поведение людей в юридически значимых ситуациях социально-правовых предписаний и общепризнанных ценностей. Посредством правосознания познается истинность самого права и способов правового регулирования, формулируются научно-практические знания о праве. В статье также отмечается, что реальными инструментами познания мира правовых явлений выступают правовые идеи, понятия, гипотезы, теории, с помощью которых осуществляется анализ правовой сферы, накапливаются и уточняются правовые знания.



**Ключевые слова**: правосознание, правовое явление, правовая сфера


## TYPS OF LEGAL CONSCIOUSNESS


**İ.H.JAFAROV**



### SUMMARY

The article notes that legal awareness is the realm of consciousness and legal reality in the form of regulatory behavior in any legal situations of social and legal requirements and generally accepted values. Through legal consciousness we reveal the truth of the law and how the legal regulation formulates scientific and practical knowledge of the law. The article also notes that the real tools of understanding the world of legal phenomena are the legal ideas, concepts, hypotheses, theories, with the aid of which the analysis of the legal sphere collectes and verifies legal knowledge.



**Keywords:** legal reality, legal situations, legal sphere

УДК 339.198

# ЦИФРОВОЙ МАРКЕТИНГ В РЕАЛИЗАЦИИ ПОЛИТИКИ ПРОДВИЖЕНИЯ ТОВАРОВ И УСЛУГ НА НАЦИОНАЛЬНОМ РЫНКЕ

**С.С.ГАДЖИЕВ**
***БакинскийГосударственный Университет***
***sabirhm@outlook.com***

*В статье рассматриваются современные тенденции развития цифрового маркетинга и его перспективы. Проанализированы востребованные и перспективные инструменты digital-маркетинга. Современный маркетинг приобрел много направлений: контент-маркетинг, socialmediamarketing, поисковый маркетинг, performance marketing, email маркетинг и другие, которые свидетельствуют об эволюции сферы маркетинга и её цифровизации. В эпоху развития цифровой экономики предприятиям и компаниям необходимо применять инновационный подход в решении поставленных задач, проводить эксперименты с производственными технологиями, использовать цифровой маркетинг для продвижения нового продукта.*

**Ключевые слова:** Цифровой маркетинг, коммуникации, продвижение, коммуникационная политика продвижения, социальные сети, товары, услуги, socialmedia marketing

***Введение*:** Главная задача цифрового-маркетинга – обеспечить максимальное присутствие бизнеса в сети и достичь максимального коммерческого результата. Целью интернет-маркетинга является привлечение новых клиентов, фиксирование их контактов для коммуникации, автоматизация продаж, изучение потребностей целевой аудитории для улучшения продукта, быстрая и эффективная коммуникация с потенциальными клиентами. Эти направления тесно связаны между собой, так как используют одни и те же коммуникационные технологии: мобильные приложения, цифровое телевидение, SMS, MMS, QR-коды. Основными направлениями в работе цифрового маркетинга является массовый перевод деятельности компаний в интернет. Каждый предприниматель независимо от отрасли производства вынужден выводить свою компанию в интернет-пространство и осуществлять деятельность с применением IT-систем. Наибольшее влияние эта тенден-

ция оказывает на разработку коммуникационной политики комплекса маркетинга.

***Результаты исследование:***за последние годы произошла кардинальная смена инструментов продвижения, а стартовой площадкой в поиске идей через Интернет являются пользователи. За их потребностями можно следить с помощью опросов клиентуры, групповых обсуждений в чатах и форумах, подсчетом посещаемости страниц сайтов и социальных сетей. Широкое распространение Всемирной сети подтверждается статистикой интернет-аудитории Азербайджана (в % от общего числа граждан каждой возрастной группы), к которой обращались при исследовании. В исследовании анализировалась связь между пользователями социальных сетей и продвижением брендов в сетях. Были определены отрасли бизнес-деятельности, которые за последний год, больше всего воспользовались услугами socialmedia marketing, рекламируя свои продукты на цифровых платформах.За последние пять лет (2017–2021 гг.) реклама в интернете полностью интегрировала в социальные сети. Это объясняется популярностью сетей и возросшим числом пользователей. На конец 2021 года число пользователей социальными сетями в мире составила 4.20 миллиарда [1]. Самыми популярными у маркетологов являются такие социальные сети как Facebook, Instagram,YouTube. В Азербайджане этот рост пришелся на период пандемии. На период 2020-2021годов, общее число местных маркетологов, пользующихся этими платформами для продвижения своих продуктов и услуг, приведено на диаграмме 1. Данные приведены из отчетов stat.gov.az.

**Диаграмма 1.** Общее число маркетологов, использующих социальные сети.




По статистике в Азербайджане потенциальными клиентами рекламодателей на Facebook считается взрослое население в возрасте от

24 до 64 лет, это те, которые, хотя бы один раз в день посещают свою страницу на Facebook. Если за 2017–2019 годы основными пользователями платформ были женщины, то в пандемический и пост пандемический период эта картина изменилась. Возросло число мужчин, пользующихся интернет-платформами, соответственно выросло число покупателей из числа мужского населения. Следует отметить, что уже на начало 2022 года цифровая платформа Instagram стала лидировать среди исследуемых [2]. Соответственно изменилось и число потребителей, совершающих покупки на указанной платформе, а также определились возрастные группы потребителей. На диаграмме 2 указаны возрастные группы пользователейв процентном соотношение от 100.

**Диаграмма 2.** Возрастные группы пользователей İnstagram за 2021 г.




Instagram стал одной из важных платформ по продвижению. Для некоторых отраслей бизнеса монетизация составляет 90% именно на этой платформе [3]. На платформе Meta сегодня самой популярной по предложениям, продажам и услугам является Instagram. Потенциальный рекламный охват в Инстаграм - 849,3 миллиона человек. Это 14% пользователей старше 13 лет. В соцсети каждый месяц размещает рекламу 2 млн бизнес-аккаунтов. Рекламодатели площадки могут охватить 52,9 млн пользователей. Бренды в среднем платят Инстаграм блогерам от $100 до $2 085 за рекламный пост. Американские маркетологи тратят 69% бюджета на пользователей-блогеров в Instagram. К общему сведению: 88% пользователей сети живет за пределами США. Ниже приведены некоторые статистические данные по маркетингу и рекламе в Instagram.

- Доход от рекламы в Instagram оценивается примерно в 26 миллиардов долларов в 2021 году
- 98 % модных брендов использует Instagram и в неделю публи-

куют около 7 сообщений

- 80 % пользователей Instagram говорят, что приобрели продукт, который видели в приложении
- 71% американских предприятий используют Instagram и 80 % аккаунтов следят за бизнесом в Instagram
- По прогнозам на 2022 год число пользователей платформой должно было достигнуть 1.13 млрд. Однако сегодня эта цифра перешла рубеж 2 млрд.

Концепция и стратегия цифрового маркетинга, представляет собой комплекс мер, направленный на привлечение внимания интернет-пользователей конкретной компании через социальные сети. За прошедший год прибыль от рекламы в указанных социальных сетях по всему миру составила соответственно в Facebook-28.3 млрд долларов, Instagram-26 млрд долларов, YouTube-5.6 млрд долларов США. Анализируя эти данные, можно сделать вывод, что потенциальные покупатели, ориентирующиеся на рекламу в интернете, являются пользователям популярных платформ и сетей. Кроме того, имеет место разделение на возрастные категории. За продвижением бренда для интернет-пользователей от 18 до 34 лет рекламу размещают на YouTube, 90% покупателей изучают информацию о продукте и бренде именно на YouTube, 70% зрителей совершили покупку у бренда после просмотра контента на YouTube. Для пользователей от 34 до 55 лет и старше, реклама размещается наFacebook. 85% потенциальных покупателей реагируют на рекламу в этой сети. 26% пользователей этой платформы, после просмотра рекламы совершили покупку. Статистика по Instagram показывает, что возрастная категория пользователей определяется в очень широком диапазоне от 12 до 55 лет.Большую роль в продвижении товара, играет гендерное распределение пользователей по их предпочтениям. В таблице 1 приведены данные по гендерному распределению пользователей в социальных сетях за 2021 год [4]. *Данные взяты из отчетов* stat.gov.az

Таблица 1

**Гендерное распределение пользователей в социальных сетях**

| **Платформа (соцсеть)** | **Общее число пользователей в процентах** | **Число женщин в процентах** | **Число мужчин в процентах** |
|---|---|---|---|
| Facebook | 100 | *43.5* | *56.5* |
| Instagram | 100 | 48.4 | 51.6 |
| YouTube | 100 | 45,8 | 54.2 |

***Выводы:*** Самой главной тенденцией развития инновационного маркетинга на современном этапе является его цифровизация. При создании цифровой рекламы важно понимать на какой цифровой платформе её продвигать. Современные аспекты маркетинговой рекламы позволяют упрощать коммуникации и ускорять процессы, видеть результаты в режиме реального времени. Профессиональный и грамотный подход к пониманию специфики применения в маркетинге цифровых технологий, позволит сделать маркетинговый процесс эффективным по рентабельности для компаний и информационно-полезным для потребителей.

***Рекомендации:*** для продвижения товара необходимо наладить регулярное взаимодействие с потребителем, на данный момент - медиапространство – это наиболее популярный способ коммуникации со значительной частью аудитории. Такое общение позволит организовывать крупные промоакции, будет способствовать пониманию мотивов и поведения потенциальных клиентов. Если товар нацелен на молодую и прогрессивную аудиторию, то через социальные сети, мобильные приложения, интернет-рекламу или вирусное видео следует охватить значительное количество потребителей. Если требуется охват большой аудитории, то необходимо создать вирусный контент, обратиться к интернет-рекламе и оригинальным крупномасштабным офлайн-акциям. Для рекламы бренда или товара среди довольно ограниченной целевой аудитории, следует использовать контекстную рекламу, а также проводить совместную работу с сайтами, которые пользуются популярностью у потенциальных клиентов.

**ЛИТЕРАТУРА**

1.Электронный ресурс:https://www.web-canape.ru/business/vsya-statistika-interneta-i-socsetej-na-2021-god-cifry-i-trendy-v-mire

2. Электронный ресурс:https://www.stat.gov.az/source/information_society//

3. Электронный ресурс:
https://www.azstat.org/MESearch/search?departament=24&lang=az

4. Электронный ресурс:https://www.Statista.com/topics/3196/social-media-usage-in-the-united-states/

## RƏQƏMSAL MARKETİNQİN MİLLİ BAZARDA MAL VƏ XİDMƏTLƏRİN TƏŞVİQİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNƏ TƏSİRİ

**S.S.HACIYEV**

### XÜLASƏ

Məqalədə rəqəmsal marketinqin inkişafındakı mövcud tendensiyalar və onun perspektivləri müzakirə olunur. Populyar və perspektivli rəqəmsal marketinq alətləri təhlil edilir. Müasir marketinq bir çox istiqamətlər əldə etmişdir: məzmun marketinqi, sosial media marketinqi, axtarış marketinqi, performans marketinqi, e-poçt marketinqi və marketinq sahəsinin təkamülündən və onun rəqəmsallaşmasından danışan digərləri. Rəqəmsal iqtisadiyyatın inkişafı dövründə müəssisələr və şirkətlər problemlərin həllində innovativ yanaşma tətbiq etməli, istehsal texnologiyaları ilə eksperimentlər aparmalı və yeni məhsulu tanıtmaq üçün rəqəmsal marketinqdən istifadə etməlidirlər.

**Açar sözlər:** rəqəmsal marketinq, kommunikasiya, tanıtım, təşviqat kommunikasiya siyasəti, sosial şəbəkələr, məhsullar, xidmətlər, sosial media marketinq.

## DIGITAL MARKETING IN THE IMPLEMENTATION OF THE POLICY OF PROMOTING GOODS AND SERVICES ON THE NATIONAL MARKET

**S.S.HAJIYEV**

### SUMMARY

The article discusses the current trends in the development of digital marketing and its prospects. The popular and promising digital marketing tools are analyzed. Modern marketing has acquired many directions: content marketing, social media marketing, search engine marketing, performance marketing, email marketing and others that speak about the evolution of the marketing sphere and its digitalization. In the era of the development of the digital economy, enterprises and companies need to apply an innovative approach to solving tasks, conduct experiments with production technologies, use digital marketing to promote a new product.

**Keywords:** Digital marketing, communications, promotion, communication policy of promotion, social networks, goods, services, social media marketing.

## PEDAQOGİKA

UOT 378

# NAXÇIVANDA ALİ TƏHSİLİN DÜNƏNİ VƏ BU GÜNÜ

**N.T.SƏFƏRLİ**
***"Naxçıvan" Universiteti***
***nubar_seferli@mail.ru***

*Azərbaycan elminə böyük dahilər bəxş edən Naxçıvanda əsrlər boyu zəngin iqtisadiyyat, mədəniyyət, elm və təhsil inkişaf etmiş, formalaşmışdır. Əsası Nuh peyğəmbər tərəfindən qoyulmuş, ipək yolu üzərində yerləşən, böyük karvan yollarının qovuşduğu bu qədim diyarda hələ qədim zamanlardan sənətkarlıq, memarlıq, ticarət özünəməxsus inkişaf yolu keçmiş və bu da öz növbəsində elmin və təhsilin inkişafına böyük təsir göstərmişdir. Bütün bunları nəzərə alaraq Naxçıvanda ali təhsilin keçdiyi inkişaf yolunu öyrənmək üçün bütün istiqamətlər üzrə araşdırmalar aparmaq və ümumiləşdirmək lazımdır. Bu baxımdan məqalədə Naxçıvanın qədim tarixi araşdırılmış və təhsilin keçdiyi tarixi inkişaf yoluna nəzər salınmışdır. Bunun üçün müxtəlif tarixi ədəbiyyatlar, fərmanlar, arxiv materialları araşdırılmış və yalnız ali təhsilin deyil, bütövlükdə təhsilin tarixi araşdırılmış, ali təhsilə gedən yol tədqiq olunmuşdur. Belə ki, Elxanilər dövrünə aid bir fərmandan məlum olmuşdur ki, XII əsrin sonlarında Naxçıvanda elm və təhsil inkişaf etmiş, burada iki mədrəsə mövcud olmuşdur. Orta əsr mənbələrinə görə XIII əsrin sonlarında Naxçıvanda dörd ali tipli mədrəsə, məscidlərin nəzdində mollaxana adlanan altmışa yaxın ibtidai mədrəsə fəaliyyət göstərirdi. Naxçıvanda ilk dünyəvi məktəb Ehsan xan Kəngərlinin XIX əsrin 30-cu illərində açdığı rus-tatar qəza məktəbidir. XIX əsrin sonlarında Naxçıvanda üsuli-cədid məktəbləri yaranmağa başladı. Ordubadda "Əxtər" (1892), Naxçıvanda "Məktəbi-tərbiyə"(1894), "Qız məktəbi" (1896) kimi, o dövr üçün uşaqlara zəngin bilik verən məktəblər M.T.Sidqi tərəfindən təsis edildi. Bununla bərabər "Məhəlli məktəblər", "Məktəbi-xeyriyyə", "Rüşdiyyə" kimi məktəblərdə fəaliyyət göstərirdi. Ümumiyyətlə, 1920-ci ilədək Naxçıvanda 45 məktəb yaradılmışdır.*

*Məqalədə yalnız məktəblərin deyil, texnikumların və institutların keçdiyi tarixi inkişaf yolu da araşdırılmışdır.*

**Açar sözlər:** Elm, təhsil, ali təhsil müəssisələri, məktəblər, mədrəsələr

Bəşər mədəniyyətinin ən qədim nümunələrini özündə əks etdirən Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvanda orta əsrlər döv-

ründən başlayaraq ali təhsilin bünövrəsi qoyulsa da, burada təhsil lap qədim zamanlardan mövcud olmuşdur.

Qədim Naxçıvan zənginliyi ilə ərəb xilafətinin də diqqətini özünə cəlb etmişdir. Bu səbəbdəndir ki, 654-cü ildə Şərqin qapısı Naxçıvan ərəb əmiri Həbib ibn Məsləmə tərəfindən işğal olunaraq ərəb xilafətinin III əmirliyinin tabeliyinə keçmişdir (15, 137). Ərəblər tərəfindən Azərbaycanın, həmçinin Naxçıvanın tutulması ilə yeni tarixi dövr başladı ki, bu dövrdə əhali islam dinini qəbul etdi. Beləliklə, bu dövrə qədər Azərbaycanda, o cümlədən Naxçıvanda insanlar tərəfindən dini etiqad kimi qəbul olunmuş "Zərdüşlük" yerini İslam dininə verdi. Zərdüşlüyün dini ideolgiya kimi hələ eramızdan əvvəl VI əsrdə Azərbaycanda anadan olmuş Zərdüş tərəfindən yarandığı bəzi fars və ərəb alimləri tərəfindən öz təsdiqini tapmışdır. Qədim Azərbaycanda Zərdüşlük (zoroastrizm) hakim ideologiya idi ki, bu ideyalar "Avesta" adlı dini külliyatda öz əksini tapmışdır. Ərəblərin Azərbaycanın işğalına qədərki dövrdə Naxçıvanda Zərdüşlük təlimini təbliğ edən çoxlu məktəblər fəaliyyət göstərirdi ki, bunun da nəticisində Zərdüşlük geniş coğrafi əraziyə yayılmışdır. Bu məktəblərdə əsasən öyrənənlərin mənəviyyat dərsləri ilə yanaşı "Avesta"da nəzərdə tutulmuş şəkildə dini və əxlaqi hislərin inkişafı, fiziki inkişafı, oxu, yazı, hesablama qaydalarına yiyələnmələri təşkil olunurdu. Zərdüş məktəblərində yeddi yaşdan başlayan sistemli təlim-tərbiyə yeddi il davam edirdi. Bu dövr ərzində aşağı təbəqənin uşaqları müəllimlərin rəhbərliyi altında dini mətn və duaları şifahi əzbərləyir, bunun üçün isə tez-tez dini mərasimlər təşkil edirdilər. Zərdüşt məbədləri yanında yerləşən məktəblərdə oxuyan yuxarı təbəqənin uşaqları isə əlavə olaraq yazı vərdişlərinə də yiyələnirdilər (17, 20). Hələ eramızdan əvvəlki dövrlərə aid Zərdüşt məktəblərində təşkil olunmuş təlim, tərbiyə prosesi, müəllim-şagird münasibətləri yalnız Azərbaycan deyil, dünya pedaqoji fikir tarixinin ən qədim təlim-tərbiyə konsepsiyası hesab oluna bilər.

Ərəblərin Azərbaycanın işğalı ilə Zərdüşlük dini ideolgiyasına son qoyularaq yeni bir dönəm, İslam dönəmi başladı. İslam dini insanlara möhkəm iradə, sağlam təfəkkür, dərin məntiqi düşüncə aşılayan bir dindir. İlk surəsi əsasən "oxu", "qələm", "öyrətmək" sözləri ilə başlayan bütün müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" elmi, biliyi, əqidəni, əxlaqı, tərbiyəni insanın ən böyük zinəti hesab edir. İslam tərbiyəsinin əsasını isə Məhəmməd Peyğəmbərin (s.a.v.) kəlamları və fikirləri təşkil edir. "Bilik mənim mirasımdır, məndən əvvəlki peyğəmbərlərin mirasıdır" buyuran Peyğəmbərimiz ilk islam məktəbinin də banisidir. İslamiyyəti ilk qəbul edən müsəlmanlar Hz. Xədicə, Hz. Əbu Bəkr, Hz. Zeyd, Hz. Əli, Hz. Osman, Hz. Ömər olmuşdur ki, onlar peyğəmbərimizin rəhbərliyində bir yerə - "Dar-əl-Əqrəm"ə (Əqrəmin evi) toplaşaraq ona gələn vəhyləri, "Qurani-Kərim"i

öyrənirdilər. Beləliklə də ilk İslam məktəbi yarandı. İlk zamanlarda bu məktəbin fəaliyyəti gizli təşkil olunsa da sonralar, yəni peyğəmbərliyin dördüncü ilində Hz. peyğəmbərimiz (s.a.v.) açıq-aşkar şəkildə vəhyləri insanlara öyrətməyə başladı. Beləliklə, öyrənmə, o cümlədən təlim sürətli təşkil olunan bir prosesə çevrilmişdi. Çünki, İslama görə bir insanın digərinə elm öyrətməsi xeyirxah və vacib əməl hesab olunurdu. Hz. Məhəmmədin (s.a.v.) Mədinəyə Hicrəti (622) ilə birlikdə islam məktəb sistemində yeni bir tarixi mərhələ yarandı. Belə ki, Həzrəti peyğəmbər (s) Mədinəyə gələn kimi müsəlmanların ibadət etmələri və İslami bilikləri mənimsəmələri üçün kərpicdən bir məscid inşa etdirdi ki, buna "Məscidi – Nəbi" deyildi (peyğəmbərə məxsus məscid). *Məscidi-Nəbinin* arxasında qiblə divarı üzərində hazırlanmış kölgəlik yerə "Suffə" deyilirdi. Burada axşamlar açıq səma altında, gündüzlər kölgəlikdə təhsil almaq daha rahat idi. Beləliklə, *Suffə İslamın ilk kollektiv oxuyub, yazma yeri hesab edilirdi* [8. 89]. Sonrakı dövrlərdə isə *məscid və camilər* yaranmağa başladı ki, bu da daha çox insanın kollektiv şəkildə öyrənməsinə səbəb olurdu. İslamın fəth etdiyi yerlərdə sürətlə məscid şəbəkəsi yaranmağa başladı.

Azərbaycanda səkkizinci əsrin əvvəllərindən başlayaraq məscid şəbəkəsinin yayılması sürətləndi və mahiyyət baxımından da digər ölkələrdən fərqləndi. Azərbaycanda məscidlərin tərkibində müsafirxana, ibadətxana, qərargah və təlim yeri daxil idi. Bura çox sayda insanlar yığışır və eyni vaxtda dərsləri dinləyirdilər ki, bu da öyrənmədə çətinlik törətdiyindən həlqələr yaranmağa başladı. Müəllimin ətrafına bir qrup dinləyicinin toplaşaraq öyrənməsinə "Həlqə", bu cür tədris üsuluna isə "Həlqeyi –tədris" deyilirdi. Məscidlərdə həlqələr çoxaldıqca səslər bir-birinə qarışır və öyrənmək çətinləşirdi. Həmçinin Azərbaycanda da digər xilafət tərkibində olan ölkələr kimi dövlət dili ərəb dili olduğundan tədris də ərəb dilində aparılırdı ki, bu da məscidlərdə öyrənmə işinə mənfi təsir göstərən amillərdən idi. Beləliklə, əvvəllər tədris üçün yararlı hesab olunan məscidlərin sonralar yalnız ibadət yeri ola biləcəyi açıq-aydın görüldüyündən məktəblər məscidlərdən ayrılmağa başladı ki, bunlara da "Kuttab" deyilirdi. Firədun İbrahimov və Rüfət Hüseynzadənin birgə yazdıqları "Pedaqogika" dərsliyinə əsasən, demək olar ki, kuttablar ərəbcə "yazı öyrətmək" mənasını verən, məhəllələrdə yaradılan, məscid və camilərə bağlı olan ibtidai məktəblər idi. Kuttabların fəaliyyətini və xüsusiyyətini araşdıran zaman bugünkü təlimin izlərini aydın şəkildə görmək olur. Belə ki, kuttablarda dərs deyənlərə "müəllim" (ərəb sözü olub, mənası öyrədən, tədris edən deməkdir) deyilir, onlara əmək haqqı verilirdi ki, bu da müəllimlik peşəsinin formalaşmasına böyük təkan verirdi. Kuttablarda, həmçinin ilk dəfə olaraq yazı lövhələrindən və silgidən istifadə olunur, o cümlədən uşaqlara istirahət üçün dərslərarası fasilələr də verilirdi.

VIII-IX əsrlərdə Azərbaycanın bir çox bölgələrində olduğu kimi

Naxçıvanda da iki növ kuttablar və məktəblər fəaliyyət göstərirdi. Birinci növ kuttablarda yalnız oxuma və yazma öyrədilirdisə, ikici növ kuttablarda isə Quranı və dini hökmləri öyrədirdilər. Kuttablarda oğlanlar 18 yaşına qədər oxuya bilərdilər, qızlar isə 7 yaşa qədər oğlanlarla birgə oxuyub, sonra buradan ayrılaraq məişət işlərinə cəlb olunurdular. Lakin varlı ailələr qızları üçün evdə təhsil təşkil edərək onların daha yaxşı Quranı öyrənməsinə şərait yaradırdılar.

Kuttablar üçün *ilk proqramı* Hz. Ömər tərtib etmişdir. Proqramın mətnində belə deyilirdi: “Uşaqlara üzməyi və ata minməyi öyrədin. Onlara geniş yayılmış zərbül-məsəlləri və gözəl şeirləri də öyrədin. Uşaqlara öyrədiləsi gərəkən şeylər: Oxu, yazı, hesab və üzməkdən ibarətdir” (6, 57).

Tarixi ədəbiyyatların tədqiqindən belə nəticəyə gəlmək olur ki, IX əsrin sonları, X əsrin əvvəllərində Orta Asiyada o cümlədən Azərbaycanda sufizm hərəkatı başlamışdı. Bu isə öz növbəsində yeni tədris müəssisələrinin: *Xanəgahların, Təkyələrin* (buna təkkə də deyilir), *Zaviyələrin, Dərgahların, Ribatların, Türbələrin* yaranmasına səbəb oldu (4.360). Bu dövrdə daha çox Naxçıvanda Xanəgahlar, Təkyə və Zaviyələr fəaliyyət göstərirdi. “İbadət yeri” mənasını verən Xanəgahlarda əsasən din, əqidə və müəyyən təriqətlər təbliğ olunsa da insanlara burada həm də elm, bilik verilir, dünyagörüşləri formalaşdırılırdı. Naxçıvan MR-in Culfa rayonunda, Əlincə çayının sahilindəki Xanağa kəndində orta əsrlərin Xanəgahından müxtəlif qalıqlar qalmışdır. Bu Xanəgah iki mərtəbədən ibarətdir. Alt mərtəbə sərdabə adlanır ki, Hürufilik təriqətinin banisi Nəiminin qəbri buradadır. Müəllimlər otağı, kitabxana, təlim-məşğələ otağı, yığıncaq otağı ikinci mərtəbədə yerləşir. Qırmızı və ağ bişmiş kərpiclə tikilmiş və yaşıl kaşilərlə bəzədilmiş abidə 8 guşədən ibarət olub üzərində çox əzəmətli bir künbəz var. Xanəgahın ön tərəfində müxtəlif fiqurlarla nəqş edilmiş 10 metr yüksəkliyində 4 sütun tikilmişdir. Xanəgahın divarından düşmüş yazılı bir daş kitabə bu gün Xanəgah məqbərəsində saxlanılmaqdadır. Vaxtilə buradakı Xanəgahda şeir məclisləri, dini, elmi söhbət və müzakirələr keçirmək üçün həmin dövrün bilikli adamları, şair və ziyalıları toplaşardılar (11, 247). Erkən orta əsrlərin ən qiymətli memarlıq abidəsindən biri də Naxçıvan şəhərindəki *Bektaşilərə məxsus Zaviyə* (“Künc”, “Guşə” mənasını verir) məscididir. Bektaşilər bu Zaviyədə həm ibadətlə, həm də təlim, tədris işləri ilə məşğul olurdular. Zaviyəyə gələnlər müxtəlif elm, bilik sahələrinə dair təriqət başçılarından, dövrün böyük alimlərindən və ziyalılarından dərs almışlar. Zaviyədə təlim, təhsil və tərbiyə prosesi ilə geniş məşğul olunduğundan buraya mədrəsə də deyilirmiş (12, 366).

Ərəblərin ölkələri fəth etdikcə İslam dini ilə bərabər müxtəlif elmləri də yayırdılar ki, bu elmləri də öyrənmək üçün xüsusi məktəb şəbəkəsi yaranırdı. İlkin orta əsrlərdə Azərbaycanın Təbriz, Ərdəbil, Həmədan,

Marağa, Gəncə, Bərdə, Beyləqan, İrəvan, Dərbənd, Şəki, Şamaxı, Bakı kimi şəhərlərində olduğu kimi Naxçıvanda da İslam məktəbləri və mollaxanalar açılmağa başladı. "Məktəb" sözü ərəb sözü olan "ketb" (yazı yazmaq) kökündən əmələ gəlmişdir ki, Azərbaycan dilində mənası "yazı yazılan yer" deməkdir. Məktəbdə dərs deyən müəllimlərə "molla" deyildiyindən, həmin dövrdəki məktəblərə "mollaxana" deyilirdi. Müxtəlif ədəbiyyatlarda mollaxanaların ətalətin, geriliyin, savadsızlığın rəmzi olaraq göstərilməsi bir çox hallarda həqiqəti əks etdirmir. Əksinə mollalar, mirzələr insanların savadlı, bilikli şəxsiyyət kimi formalaşaraq cəhalətdən qurtarmaları üçün o dövrə görə böyük işlər görən savadlı şəxslər olmuşlar. Bu səbəbdəndir ki, xalq arasında belə bir deyim var: "Hər oxuyan Molla Pənah olmaz". Təsadüfi deyildir ki, elm, mədəniyyət, ədəbiyyat, memarlıq sahəsində ilk görkəmli alimlər, şairlər məhz bu məktəblərin yetirmələri idilər. Professor Əsəd Yəqubi XI əsrdə yetişən Əbu-Ömər Naxçıvani, Ekmiləddin Naxçıvani, Qətran Təbrizi, habelə XII əsrin görkəmli filosofu Şihabəddin Sohrverdinin öyrənmə, ilk təhsil alma yeri kimi məktəbləri əsas götürərək belə bir qənaətə gəlirdi: "Azərbaycanda elm və təhsilin sürətlə inkişafı daha çox XII əsrdə nəzərə çarpır. Azərbaycanda formalaşmış məktəb və mədrəsə sisteminə aid olan ilk konkret faktlar da məhz bu dövrə aiddir" (14, 7).

Akademik İsa Həbibbəyli "Qədim karvan yolu üzərində Naxçıvan" adlı məqaləsində göstərmişdir ki, karvan yollarının, əsasən də Böyük İpək Yolunun Naxçıvan ərazisindən keçməsi ən qədim dövrlərdən başlayaraq burada həm Şərq, həm də Qərb maarif və mədəniyyətinin inkişaf etməsinə şərait yaratmışdır. Xüsusilə XII əsrdə *Atabəylər* dövlətinin paytaxtı olan Naxçıvanda dövlət başçısı *Atabəy Şəmsəddin Eldənizin* fərmanları ilə (hakimiyyət illəri – 1136-1125) inşa edilən dövrümüzdəki universitet dərəcəsində olan mədrəsələr Şərq ölkələrində tanınmış və böyük şöhrət tapmışdır. Həmin mədrəsələrdə Şərq mədəniyyəti ilə yanaşı, dünyəvi elmlər də - həndəsə, riyaziyyat, astronomiya və tibb tədris olunurdu. Şəmsəddin Eldəniz ölkəsində elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın inkişafı üçün bir sıra işlər görmüş, məscidlər, camilər, məqbərələr, məktəblər və türbələr, inşa etdirmişdir ki, bunların da əksəriyyətinin *Memar Əbubəkr Əcəmi Naxçıvaninin* bu dövrdə inşa etdiyi və müasir dövrümüzdə də dünya mədəni irs siyahısına daxil olduğu hərkəsə məlumdur.

XII əsrdə Naxçıvan haqqında yazılan əsərlərin hər birində burada olan məktəb və mədrəsələr, onların fəaliyyəti ilə bağlı qısa da olsa məlumata rast gəlmək mümkündür. Naxçıvan orta əsrlər dövründə hərtərəfli inkişaf etmiş, zəngin mədəniyyətə malik bir şəhər olmuşdur. Atabəylər dövləti təxminən 30 il Naxçıvanın mərkəzi meydanında ucalan Darül-mülkdən (Hökumət evi) idarə olunmuşdur. Heç şübhəsiz ki, mərkəzi meydanda ucalan digər tikililərlə yanaşı mədrəsələr də dövlət qayğısı ilə əhatə olunmuş və əsərdə də

qeyd olunduğu kimi əhalisi çox olan bu şəhərdə əsas təhsil müəssisəsi idi. Müxtəlif tarixi əsərlərin tədqiqindən belə nəticəyə gəlmək olar ki, XII əsrdə Naxçıvanda "Mədrəseyi-Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adı ilə fəaliyyət göstərən mədrəsələrdə təkcə dini dərslər deyil, dünyəvi dərslər də keçirilir, hətta burada təhsil almaq üçün Yaxın və Orta Şərqin bir sıra ölkələrindən də uşaqlar gəlirdilər. Bu iki böyük mədrəsədən əlavə orta əsr mənbələrində verilmiş məlumata, o cümlədən Övliya Çələbinin yazdığına görə bu dövrdə Naxçıvanda 10200 "örtülü böyük ev", 40 məscid, 20 karvansara fəaliyyət göstərmişdir. XIII əsrdə isə təhsil şəbəkəsi daha da genişlənmişdir. Belə ki, bu dövrdə Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində 60-dan çox ibtidai məktəb fəaliyyət göstərmişdir. Bu mədrəsələr XX əsrin əvvəllərinə qədər mövcud olmuşdur (15, 22).

Naxçıvan mədrəsələri Möminə xatın və Yusif Küseyir oğlu türbələrinə aid olmuş və onların vəqfləri, gəlirləri hesabına maliyyələşmişdir. Tarixi əsərlərin tədqiqindən məlum olur ki, Şərq ölkələrində məktəb və mədrəsələrin əksəriyyəti məscidlərin və məqbərələrin vəqfləri hesabına ödənilirdi.

Naxçıvanda XII əsrin məktəb və mədrəsələrinin tarixinə və onların inkişafına dair dəyərli sənədlər və fərmanların bəziləri günümüzə qədər gəlib çatmışdır. Məktəb və mədrəsə tarixinə aid günümüzə qədər gəlib çatmış ən dəyərli sənədlərdən biri "Təqrir-i tədris-i mədrəseyi Naxçıvan əz inşa mərhum Şəmsəddin Sahib-Divan" ("Mərhum Sahibi Divan Şəmsəddinin inşa etdirdiyi Naxçıvan mədrəsələrinin tədrisi təqdirinə dair") adlı Fərmandır. Fərmanda Atabəylər dövlətinin başçısı Sultan Şəmsəddin Eldənizin Naxçıvanda tikdirdiyi mədrəsələr və onların idarə olunması haqqında çox dəyərli məlumatlar verilmişdir. Bu mədrəsələr əsasən Əcəminin yaratdığı Mömünə Xatun (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif İbn Küseyr türbəsi ilə eyni vaxtda tikilmişdir. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan olan bu fərmandan görünür ki, Atabəylər dövründə Naxçıvanda mədrəsələr çox məşhur olduğundan dövlət himayə etmişdir (16, 59).

Yuxarıda da qeyd olunduğu kimi XII əsrdə Naxçıvanda iki böyük mədrəsə: Mədrəseyi-İrşadiyyə və Mədrəseyi- Bektaşiyyə fəaliyyət göstərmişdir. XIII əsrin sonlarında isə artıq Naxçıvanda 4 ali tipli mədrəsədə dünyəvi dərslər tədris olunurdu. Bu dövrdə Naxçıvandan başqa Ordubadda da mədrəsələr açılmışdı ki, burada yalnız azərbaycanlılar deyil başqa ölkələrdən gəlmiş tələbələr təhsil alırdılar (3, 19). Bu mədrəsələrdən başqa Naxçıvanda mollaxanalar, ibtidai məktəblər də mövcud idi. Lakin XX əsrin 20-ci illərində Naxçıvan Pedaqoji Texnikumunun, Naxçıvan Pedaqoji Qız Məktəbinin, Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılmasını ali təhsilə gedən yolun başlanğıcı hesab etmək olar. Muxtar Respublika xalq Komissarlığı sovetinin 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılmış

ikiillik C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun həmin ilin 15 sentyabrında fəaliyyətə başlaması ilə Naxçıvanda ilk ali təhsil strukturunun əsası qoyuldu. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu cəmi iki fafkültə ilə (dil-ədəbiyyat, fizika riyaziyyat) fəaliyyətə başladı. Əvvəllər heç bir tədris avadanlıqıarı, kifayət qədər maddi-texniki bazası olmayan institut işgüzar və təşəbbüskar pedaqoji kollektivin səyləri ilə çox qısa vaxtda xeyli əyani vəsaitlərlə və tədris avadanlıqıarı ilə zənginləşdi. Ümumtəhsil məktəbləri üçün müəllim hazırlamaqda çox böyük rolu olan, müəllimlərin tərkib və təhsil dərəcələrinin artmasına böyük təsir edən C.Məmmədquluzadə adına Naxçıvan dövlət Müəllimlər İnstitutu 15 ilə yaxın davam edən fəaliyyəti dövründə sözün əsl mənasında Muxtar Respublikanın pedaqoji kadr potensialının yaranmasında müstəsna rol oynadı. Həmin institutun yüzlərlə məzunu sonralar Azərbaycanın ictimai-siyasi fikrinin, elminin, mədəniyyət və maarifinin aparıcı simaları kimi tanındılar. İlk qəbul ilində (1939-1940) cəmi iki fakültə üzrə fəaliyyətə başlayan instituta qəbul olunan 129 tələbədən 64 nəfəri 1941-ci ildə səfərbərliyə alınıb 1941-1945-ci illər müharibəsinə göndərildiyindən ilk buraxılışda institutu cəmi 65 nəfər bitirmişdir. Onlardan 52 nəfəri ədəbiyyat, 13 nəfəri fizika-riyaziyyat ixtisası üzrə müəllimlik diplomu almışdır. İlk məzunlardan 31 nəfəri qızlar idi (20, 27).

Yenicə fəaliyyətə başlayan C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun ilkin fəaliyyət illəri çox ağır dövrə - 1941-1945-ci illərin müharibəsi dövrünə təsadüf etsə də, tələbə kontingenti sahəsində və digər sahələrdə yaranmış bir sıra çətinliklər və ciddi problemlər institutun pedaqoji heyətininin mübarizə ruhunu sındıra bilmədi. Onların gərgin və fədakar əməyi sayəsində müharibə ilərində institut öz fəaliyyətini dayandırmadı və həmin illərdə əyani şöbənin dörd fakültəsi (dil-ədəbiyyat, fizika–riyaziyyat, tarix, təbiət-coğrafiya) üzrə institutu 166 nəfər bitirə bildi. İnstitut 1939-1954-cü illərdə 4 fakültə üzrə (əyani və qiaybi şöbələr) fəaliyyət göstərmişdir. Muxtar Respublikanı ali-orta təhsilli pedaqoji kadrlarla təmin edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu Muxtar Respublikada maarifin inkişafı üçün çox gərgin dövrlərdə müstəsna rol oynadı. Fəaliyyəti illərində institutda 6 kafedra (dil-ədəbiyyat, pedaqogika, təbiət-coğrafiya, fizika-riyaziyyat, marksizm-leninizmin əsaları, hərbi) və 5 kabinet (fizika, biologiya, dil-ədəbiyyat, hərbi, bədən tərbiyəsi) mövcud olmuş və fəaliyyət göstərmişdir. Bundan əlavə 4000 cild kitabı olan kitabxana, 5 dərnək ("Gənc natiralistlər", "Yeni yazanlar", "Fizika-riyaziyyat", "Marksizm klassiklərini öyrənənlər") təşkil edillərək institut tələbələrinin istifadəsinə verilmişdir. Naxçıvan Dövlət Müəllimlər İnstitutunun fəaliyyəti dövründə qiyabi təhsilə də xüsusi diqqət verilmiş, həmin dövrdə qiyabi təhsil sistemi ön plana çəkilməklə pedaqoji kadrların seçilib təhsilə

cəlb olunmasında uğurların əldə edilməsinə səy göstərilmişdir.

XX əsrin 40-cı illərində Muxtar Respublikanın ucqar rayon və kəndlərində Azərbaycan SSR XMK-nın 17 fevral 1944-cü il tarixli 35 №-li əmrinə əsasən açılmış xüsusi kursları biitrən müəllimlər çalışırdılar. İbtidai məktəb müəllimləri hazırlayan 2 aylıq və natamam orta məktəbin V-VII sinifləri üçün müəllim hazırlayan 4 aylıq kursları bitirib müəllim işləyənlərin qiyabi təhsilə cəlb edilməsi də Naxçıvanda pedaqoji kadr hazırlığında mühüm mərhələ oldu. Müxtəlif illərdə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun əyani və qiyabi şöbələrini 1159 nəfər bitirərək Naxçıvanda və Azərbaycanın digər rayonlarında pedaqoji fəaliyyətlə məşğul olmağa başladılar. Həmin pedaqoji kadrların Azərbaycanda ictimai-siyasi fikrin və xalq maarifinin inkişafında çox böyük rolu oldu.

1941-1945-ci illər müharibəsinin ilk günlərindən Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müəllim və tələbələrinin xeyli hissəsi səfərbər edilərək döyüş cəbhələrinə göndərildi. Müharibə illərində müxtəlif cəbhələrdə vuruşan həmin döyüşçülərin keçdiyi döyüş yoluna nəzər salarkən onların həqiqi mənada əsl vətənpərvər kimi şanlı bir yol keçdikləri və Vətən qarşısında öz borclarını ləyaqətlə verdikləri diqqəti cəlb edir. İnstitutun müəllim, tələbə və məzunlarından Yunis Məmmədli oğlu Qasımovun, Əsgər Yusif oğlu Əhmədovun zabit kimi cəbhədə vuruşaraq böyük şücaətlər göstərməsi, Əli Abdulla oğlu Talıbovun müharibənin ilk günlərindən cəbhəyə gedib Leninqrad cəbhəsində qəhrəmanlıqla vuruşaraq 1-ci və 2-ci dərəcəli vətən müharibəsi, Qırmızı ulduz ordenlərilə təltif olunması, Əli Həsən oğlu Babayevin Oryol və Kursk döyüşlərində şücaətlər göstərərək bir neçə orden və medalla təltif olunması, Kamil Alcəfər oğlu Qafarovun 1941-ci ildən 1945-ci ilə kimi Berlinin alınmasına qədər ağır bir döyüş yolu keçib şücaətlərinin ordenlərlə və medallarla qiymətləndirilməsi, Həbib Allahverdi oğlu Rzayevin Stalinqrad cəbhəsində ağır döyüş yolu keçməsi, Sultan Məşədi Əzizbəyov oğlu Zeynalovun, Abbasqulu Məmmədqulu oğlu Quliyevin və onlarla digərlərinin döyüş cəbhələrindəki şücaətləri Naxçıvan Dövlət Müəllimlər İnstitutunun qələbə uğrunda mübarizəyə köməyinin təcəssümü idi.

İnstitut tələbələrindən və məzunlarından 3 nəfərin – Qəzənfər Əkbərov (1917-1944), Nəcəfqulu Rəfiyev (1912-1972) və Abbas Quliyev (1916-1997) müharibə dövründə çox böyük qəhrəmanlıqlar göstərərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmələri Naxçıvan Dövlət Müəllimlər İnstitutunda vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə aşılanmasını göstərir və qələbənin qazanılmasında istitutun mühüm rol oynadığını sübut edir.

Qiyabi şöbə də daxil olmaqla Naxçıvan dövlət Müəllimlər İnstitutunun illər üzrə aşağıdakı sayda müdavimi olmuşdur:

1941-ci ildə 62 nəfər (o cümlədən qızlar 20 nəfər), 1942-ci ildə 37 nəfər (qızlar 17 nəfər), 1943-cü ildə 33 nəfər (qızlar 23 nəfər), 1944-cü ildə

49 nəfər (qızlar 24 nəfər), 1945-ci ildə 33 nəfər (qızlar 8 nəfər), 1946-cı ildə 42 nəfər (qızlar 8 nəfər), 1947-ci ildə 56 nəfər (qızlar 9 nəfər), 1948-ci ildə 73 nəfər (qızlar 11 nəfər), 1949-cu ildə 92 nəfər (qızlar 13 nəfər), 1950-ci ildə 111 nəfər (qızlar 20 nəfər), 1951-ci ildə 133 nəfər (qızlar 28 nəfər), 1952-ci ildə 200 nəfər (qızlar 39 nəfər), 1953-1954-cü illərdə 238 nəfər (qızlar 181 nəfər), cəmi 1159 nəfər (qızlar 381 nəfər) (22, 48).

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun 15 ilə yaxın davam edən fəaliyyətinin öyrənilməsi və təhlili nəticəsində bu qənaətə gəlmək olur ki, həmin institut XX əsrin ortalarında zəruri olan tarixi şərait nəticəsində yaranmış və Azərbaycanda kadr potensialının yüksəlməsində, elmin, xalq təhsilinin və ictimai-siyasi fikrin inkişafında mühüm rol oynamışdır.

Azərbaycan SSR Nazirlər Sovetinin 339 saylı 21 may 1963-cü il tarixli qərarına əsasən 1 iyun 1963-cü il tarixdən Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvanda, Naxçıvan MSSR Maarif Nazirliyinin metod-kabineti bazası nəzdində filialı açıldı. Lakin filial mövcud ehtiyacı tam ödəmirdi. Buna görə də filial əsasında müstəqil institut yaradılması məsələsi ortaya çıxdı. Azərbaycan SSR Nazirlər Sovetinin 08 aprel 1965-ci il 229 nömrəli qərarı ilə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Naxçıvan filialının müstəqil instituta çevrilməsini nəzərə alan Naxçıvan MSSR Maarif Nazirliyi 3 may 1965-ci il 149 saylı əmri ilə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Naxçıvan filialının ştat vahidlərini saxlamaqla müstəqil olaraq Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutuna çevrilməsi rəsmiləşdirilir (21, 58). Lakin cəmiyyətin artan tələbatı yeni institutların açılmasını tələb edirdi. Nəhayət, 1967-ci ildə Naxçıvan şəhərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı fəaliyyətə başladı. Filialda üç ixtisas Azərbaycan dili və ədəbiyyatı, tarix və riyaziyyat ixtisasları üzrə mütəxəssislər hazırlanırdı. Həmin vaxt burada elmi dərəcəsi olan cəmi 4 nəfər müəllim elmi-pedaqoji fəaliyyətlə məşğul olurdu. Beş il sonra, yəni 1972-ci ildə Naxçıvanda kadr ehtiyacının təmin olunması məqsədi ilə Naxçıvan filialının bazası əsasında Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu təşkil olundu. İnstitutda Azərbaycan dili və ədəbiyyatı, tarix, fizika, riyaziyyat, kimya, biologiya, əmək ixtsasları üzrə mütəxəssislər hazırlanırdı. Müstəqil ali məktəbin yaradılması Muxtar Respublika məktəblərini daha yaxşı kadrlarla təmin etməyə şərait yaratdı. İnstitut 29 dekabr 1990-cı ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan Dövlət Universitetinə çevrilmişdir. Universitetdə pedaqoji istiqamətli mütəxəssislərdən başqa hüquqşünaslar, avtomobil və rabitə mühəndisləri, iqtisadçılar və mühasiblər, bələdiyyə və gömrük işçiləri də hazırlanmağa başlandı. 1992-ci ildən universitetdə aspirantura şöbəsi və "Regionun inkişafı problemləri" adlı problem laboratoriya fəaliyyət göstərir. Universitetin filologiya

və yarımkeciricilər fizikası ixtisasları üzrə müdafiə şuralarında namizədlik və doktorluq dissertasiyaları müdafiə olunur. Univesitetdə keçirilən elmi konfrans və simpoziumlarda ən aktual məsələlər müzakirə olunur. Müstəqil Azərbaycanın gənc nəslinin dünyagörüşünün inkişafına xidmət edən "Heydər Əliyev Universiteti" Naxçıvan Dövlət Universitetində əsl dövlətçilik məktəbi kimi uğurla fəaliyyət göstərir.

Azərbaycanın ali məktəbləri arasında özünəməxsus yeri olan Naxçıvan Dövlət Universitetinin formalaşması və inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dahi siyasətçi özünün böyük uzaqgörənliklə həyata keçirdiyi bu maarifçi ideyası haqqında sonralar demişdir: “Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarıyam. Universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm… Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir”. Hazırda Naxçıvan Dövlət Universiteti regionda ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarından biridir. Yarandığı gündən beynəlxalq tərəfdaşlığa önəm verən Naxçıvan Dövlət Universiteti hazırda doxsandan çox xarici təhsil ocaqları ilə əməkdaşlıq edir. Naxçıvan Dövlət Universiteti 2013-cü ilin may ayından Mövlanə Mübadilə Proqramına qoşulmuşdur. Mübadilə çərçivəsində universitet müəllimləri bir həftədən 3 ay müddətinədək, tələbələr isə 6 aydan (bir semestr)-12 ayadək (2 semestr) mübadilə proqramında iştirak edərək başqa ölkələrin qabaqcıl təcrübələrini mənimsəyərək öz fəaliyyət sahələrində tətbiq edirlər.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında özəl ali təhsil müəssisəsi də yarandı və tez bir zamanda inkişaf etməyə başladı. Naxçıvan Özəl Universiteti 1994-cü ildə təşkil olunmuşdur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi 05 iyul 1999-cu il tarixli 33 saylı şəhadətnamə ilə müəssisəni Naxçıvan Özəl Universiteti adı ilə dövlət qeydiyyatına almışdı. 1999-2000-ci tədris ilindən müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyətə başlamışdır. 1998-ci il oktyabrın birində Naxçıvan Özəl Universitetinin yeni binasının açılışı olmuşdur. Naxçıvan Özəl Universiteti Azərbaycanın paytaxtı Bakı şəhərindən kənarda yerləşən yeganə özəl ali təhsil ocağıdır. Azərbaycan Respublikasında xüsusi icazə tələb olunan fəaliyyət növlərinin siyahısına uyğun olaraq Naxçıvan Özəl Universitetinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin AB seriyalı 019008, qeydiyyat nömrəsi 08, 11 noyabr 1999-cu il tarixli lisenziya verilmişdir (3, 140). Naxçıvan Özəl Universiteti 2015-ci ildən “Naxçıvan” Universiteti kimi fəaliyyətini davam etdirir. Lisenziyaya uyğun olaraq “Naxçıvan” Universitetində çoxpilləli təhsil sisteminin bakalavr və

magistr pilləsində mütəxəssis hazırlığı aparılır. Universitetdə 4 fakültə, 10 kafedra, 6 şöbə fəaliyyət göstərir. Hazırda universitetin 1000 nəfərə yaxın tələbəsinin təhsili ilə 81 nəfər müəllim məşğuldur. Professor- müəllim heyətinin 2 nəfəri AMEA-nın üzvü, 3 nəfəri elmlər doktoru-professor, 29 nəfəri fəlsəfə doktoru, dosentlərdir. Universitet zəngin maddi-texniki bazaya malikdir. 7 binadan və yardımçı qurğulardan ibarət möhtəşəm universitet şəhərciyi salınmışdır. Arxitektura və pedaqoji baxımından mükəmməl olan tədris korpusları, yüksək zövqlə dizayn edilmiş mühazirə və məşğələ otaqları, kabinə və mərkəzlər mövcuddur. Təlim prosesində ən son modifikasiyalı texnologiyalardan istifadə olunur. Elektron zalları, zəngin kitab fondu olan elmi kitabxana, yaraşıqlı idman kompleksi və konfrans zalı, hər cür şəraitə malik müasir yataqxana, həmçinin üçmərtəbəli sosial xidmət mərkəzi fəaliyyət göstərir. Naxçıvan Özəl Universiteti 2015-ci ildən "Naxçıvan" Universiteti kimi fəaliyyətini davam etdirir. Hazırda universitetdə 4 fakültə, 10 kafedra, 6 şöbə fəaliyyət göstərir. Şöbələrdən biri də 2012-ci ildə yaradılmış Beynəlxalq Əlaqələr Şöbəsidir ki, "Naxçıvan" Universitetin Beynəlxalq mühitə inteqrasiyasına, müxtəlif universitetlərlə əlaqələrin yaradılmasına, beynəlxalq təlim və proqramlarda iştirakına şərait yaradır. Missiyası yeni beynəlxalq əlaqələrinin qurulması və universitetin dünya standartlarına uyğun beynəlxalq profilinin yaradılmasıdır. Beynəlxalq Əlaqələr Şöbəsi hər bir fakültə və kafedranı universitet səviyyəsində elm, təhsil, mədəni sahələr üzrə müvafiq universitet və beynəlxalq təşkilatlarla əlaqələr və məqsədyönlü əməkdaşlıq yaratmaları məqsədi ilə koordinasiya edir, beynəlxalq əməkdaşlığın gələcək töfhələrinə dair danışıqlar aparır. Hazırda Universitetin Avropanın və eyni zamanda Türkiyənin bir sıra Universitetləri ilə sıx əməkdaşlıq əlaqələri mövcuddur. 2012-ci ildən Mövlana Mübadilə Proqramına qoşulan Universitet proqram çərçivəsində Türkiyə Respublikasının 20-dən çox Universitetləri ilə əməkdaşlıq edir. Bu proqram əsasında 2013-2014-cü tədris ilində İstanbul Aydin Universitetinə-3 tələbə, 2016-2017-ci tədris ilində Bozok Universitetinə-1 tələbə, 2017-2018-ci tədris ilində Beykent Universitetinə-1 tələbə bir semestirlik təhsil almaq üçün göndərilmişdir. Həmçinin "Erasmus plus" mübadilə proqramına qoşulan "Naxçıvan" Universitetinin 3 tələbəsi proqram çərçivəsində İspaniyanın Valladolid universitetində bir semestirlik (2018-2019-cu tədris ilində) təhsil almaq şansı qazanmışlar. 2015-ci ildə "Naxçıvan" Universitetində Çin Xalq Respublikasının "Huawei" firmasının mərkəzi yaradılıb. Mərkəzin yaradılmasının əsəs məqsədi İKT sahəsində kadrların yetişməsidir. Çin Xalq Respublikasının "Huawei" şirkəti və Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə çərçivəsində "Naxçıvan" Universitetinin tələbələri seçim turlarında iştirak etmiş və 7 tələbə qalib gələrək 2016-cı və 2017-ci illərdə Çin Xalq Respublikasına istehsalat təcrübəsinə

göndərilmişdir. Həmçinin "Naxçıvan" Universitetində xarici tələbələrin təhsil alması üçün də yüksək səviyyədə şərait yaradılmışdır. 2017-2018-ci tədris ili üzrə "Naxçıvan" Universitetində bakalavr, magistratura və doktorantura üzrə 10 türk, 4 banqladeşli, 2 nigeriyalı, 2 misirli xarici tələbə təhsil almışdır. 2018-2019-cu tədris ilində isə bakalavr pilləsi üzrə 5, magistratura pilləsi üzrə 5, doktorantura pilləsi üzrə isə 2 xarici tələbə təhsil alır. O cümlədən hazırlıq kursunda da 31 xarici tələbə təhsil alır. "Naxçıvan" Universitetinin verdiyi diplomlar Azərbaycan Respublikası Təhsil Nazirliyinin tanındığı bütün dövlətlərdə tanınır. "Naxçıvan" Universiteti EURAS- Avrasiya və KUNİB- Qafqaz Universitet Birliklərinin də üzvüdür və Avropa Birliyinin **Comolte və** AESOP layihələrində iştirak edir.

Naxçıvan Müəllimlər İnstitutu 2000-2001-ci tədris ilindən Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi fəaliyyətə başlamışdır. 2003-cü ildən Naxçıvan Müəllimlər İnstitutu kimi müstəqil fəaliyyət göstərir. 2015-ci ilin məlumatlarına əsasən institutda 1100 bakalavr, 25 magistr təhsil almışdır. Tələbə və magistrlərin təhsili ilə 89 professor-müəllim heyəti məşğul olmuşdur. Müəllimlərdən 8 nəfəri elmlər doktoru, professor, 37 nəfəri fəlsəfə doktoru, dosentdir. Naxçıvan Müəllimlər İnstitutunda zəngin kitabxana fəaliyyət göstərir. 42 minə yaxın kitab fonduna malik olan kitabxana son illərdə nəşr olunan tədris-metodik, elmi, monoqrafik xarakterli ədəbiyyatlarla zənginləşdirilmiş və elektron kataloq yaradılmışdır. Naxçıvan Müəllimlər İnstitutunda az bir müddət ərzində beynəlxalq əlaqələr qurulmağa başlansa da artıq buruda 7 xarici tələbə təhsil alır. Onlardan beşi nigeriyalı, ikisi isə türk tələbədir ki, yaxın zamanda inistitut bu sayı daha da artırmaq məqsədi ilə Mövlanə Mübadilə Proqramına və Erasmus proqramına qoşulmuşdur.

2021-2022-ci tədris ilində Naxçıvan ali təhsil müəssisələrində 20-dən çox beynəlxalq və respublika konfransları keçirilmiş, müxtəlif xarici ölkələrlə müqavilələr imzalanmışdır. Bu isə Naxçıvan ali təhsil müəssisələrinin sürətli inkişaf etdiyini göstərir.

**ƏDƏBİYYAT**


1. Ağayev Ə. Pedaqoji elmimizin dünəni və bu günü. – Bakı: Elm, - 2003, - 341 s.
2. Ahmet Ç. İslamda eğitim-öğretim tarihi. – İstanbul: Damla yayın evi, - 1983, - 193 s.
3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. – Bakı: Elm, - 1989, - 286 s.
4. Əliyeva N. Azərbaycanda İslam mədəniyyəti. – Bakı: Elm və təhsil, - 2017, - 488 s.
5. Hacıyev İ. Naxçıvan və naxçıvanlılar. – Bakı: Elm, - 2001, - 316s.
6. Hüseynzadə R. Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. – Bakı: Nurlar, - 2007, - 327 s.
7. Hüseynzadə R. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. – Bakı: MBM, - 2005, - 327 s.
8. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. – Naxçıvan: Qeyrət, - 2002, - s.80.
9. Həbibbəyli İ. Naxçıvan Universitetinin yetirmələri. – Bakı: ADPU, - 1992, - s.120
10. Həbibbəyli İ. Azərbaycan. 2013. 7 may. s.7.

11. İbrahimov F. və Hüseynzadə R. Pedaqogika. – Bakı: Mütərcim, - 2012, - 548 s.
12. İslam ansiklopedisi. Hazırlayan İsmayıl Özcan. – İstanbul: Milliyyet, - 1991, - 381 s.
13. Məmmədov K. Şərq pedaqoji fikir tarixindən (Tədris vəsaiti). – Bakı: Mütərcim, - 2011, - 179 s.
14. Naxçıvan ensklopediyası I cild. – Naxçıvan: AMEA, - 2002, - 194 s.
15. Naxçıvan ensklopediyası II cild. Naxçıvan: AMEA, - 2002, - 128 s.
16. Piriyev V. Naxçıvan tarixindən səhifələr (XIII- XIV əsrlər). – Bakı: Müəllim, - 2004, - 126 s.
17. Rzayev V. XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr. – Naxçıvan: Əcəmi, - 2016, - 174 s.
18. Rzayev V. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəllərində). – Naxçıvan: Əcəmi, - 2017, - 252s.
19. Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. – Bakı: Elm, - 2003, - 392s.
20. Məmmədov V. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu, - Bakı: Çənlibel, - 2001, - s.140
21. Məmmədov V. Naxçıvan Müəllimlər İnstitutu. – Naxçıvan: Əcəmi, - 2004, - s.136
22. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 2, iş 40, 30 v.


## ПРОШЛОЕ И НАСТОЯЩЕЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В НАХЧЫВАНЕ


**Н.Т.САФАРЛИ**


### РЕЗЮМЕ


В Нахчыване, подарившем азербайджанской науке гениев, на протяжении веков развивались, формировались богатая экономика, культура, наука и образование. Основа этой древней страны была заложена пророком Ноем, она расположена на Шелковом пути, где сходились великие караванные пути. Еще с древних времен здесь развивались искусство, архитектура и торговля, что в свою очередь оказало большое влияние на развитие науки и образования. Учитывая все это, для изучения пути развития высшего образования в Нахчыване необходимо провести исследования и обобщить их по многим направлениям. В связи с этим в статье рассмотрены древняя история Нахчывана и исторический путь развития образоания. На основе изучения богатого фактического материала, литературных источников. Для этого была изучена разнообразная историческая литература, указы, архивные материалы и изучена история не только высшего образования, но и образования в целом, изучен путь к высшему образованию. Так, из указа, относящегося к периоду Эльханидов, известно, что в конце XII века в Нахчыване развивались наука и образование, здесь существовали два медресе. Согласно средневековым источникам, в конце XIII века в Нахчыване функционировали четыре медресе высшего типа, а при мечетях функционировали около шестидесяти медресе начального уровня, которые назывались моллахана. Первой светской школой в Нахчыване была русско-татарская казенная школа, открытая Эхсан ханом Кенгерли в 30-х годах XIX века. В конце XIX века в Нахчыване начали появляться школы Усули-Джадид. Такие школы, как “Ахтар” (1892) в Ордубаде, “Школа-воспитания” (1894), “Школа для девочек” (1896) в Нахчыване, которые давали детям богатые знания для того времени, были основаны М.Т.Сидги. Наряду с указанными, функционировали такие как «махаллинские школы», «Школы-

благотворительности», «Рушдийя». Всего до 1920 года в Нахчыване было создано 45 школ.

В статье рассмотрен исторический путь развития, не только школ, но и техникумов и институтов.

**Ключевые слова:** наука, образование, высшие учебные заведения, школы, медресе

## THE PAST AND THE PRESENT STATE OF HIGHER EDUCATION IN NAKHCHIVAN

N.T.SAFARLI

### SUMMARY

Rich economy, culture, science and education developed and formed over the centuries in Nakhchivan, which gave great geniuses to Azerbaijani science. The foundation of this ancient country was laid by the prophet Noah, it is located on the Silk Road, where the great caravan routes converged. Since ancient times, art, architecture and trade have developed here, which in turn had a great influence on the development of science and education. Considering all this, in order to study the development of higher education in Nakhchivan, it is necessary to conduct research and generalize them in all areas. From this point of view, the article studied the ancient history of Nakhchivan and considered the historical path of development of education. For this, a variety of historical literature, decrees, archival materials were studied and the history of not only higher education, but also education in general, the path the higher education passed was investigated. Thus, from the decree relating to the period of the Elkhanids, it is known that at the end of the 12th century science and education developed in Nakhchivan, there were two madrasahs here. According to medieval sources, at the end of the 13th century, four madrasahs of the highest type functioned in Nakhchivan, and about sixty madrasahs of the primary level, called mollakhana, functioned at mosques. The first secular school in Nakhchivan was the Russian-Tatar state school, opened by Ehsan Khan Kangarli in the 30s of the 19th century. At the end of the 19th century, Usuli-Jadid schools began to appear in Nakhchivan. Schools such as “Akhtar” (1892) in Ordubad, “School of Education” (1894), “School for Girls” (1896) in Nakhchivan, which gave children rich knowledge for that period, were founded by M.T. Sidgi. Along with this, such schools as “mahalla schools”, “Charity Schools”, “Rushdiya” functioned. In total, 45 schools were created in Nakhchivan until 1920.

The article considers the historical path of development, not only of schools, but also of technical schools and institutes.

**Keywords:** Science, Education, higher educational institutions, schools, madrasahs.

## PSİXOLOGİYA

UOT 159.923.2

# GƏNCLƏRİN VƏTƏNDAŞ İDENTİKLİYİNİN FORMALAŞMASI AMİLLƏRİ

**İ.A.TEYMUROVA**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***irade.teymurrova@gmail.com***

*Məqalə dövrümüzün ən aktual problemlərindən birinə - gənclərin, o cümlədən tələbələrin vətəndaş identikliyinin formalaşması amillərinin təhlilinə həsr olunmuşdur. Məqalədə gənclərdə vətəndaş identikliyinin formalaşmasının əsas istiqamətləri, mahiyyəti və pedaqoji şərtləri nəzərdən keçirilir.*

**Açar sözlər:** gənclər, gənclər siyasəti, vətəndaş identikliyi, vətəndaş cəmiyyəti, təhsil, tərbiyə, vətəndaş tərbiyəsi, vətəndaş təhsili

**Giriş.** Gənclər dövlətin strateji resursu və cəmiyyətin ən fəal təbəqəsidir. Bu amil, dövlət idarəçiliyində gənclərin rol və yerinin düzgün qiymətləndirilməsini şərtləndirir.

Gənclər siyasəti ənənəvi sosial siyasətdən fərqli olaraq, kompensasiya mexanizmlərinin inkişafı ilə məhdudlaşmamalıdır. O gənclərin vətəndaş, əmək və yaradıcılıq potensialını əks etdirən fəal innovativ və məhsuldar aspektləri özündə əks etdirməlidir.

Problemə bu cür yanaşma gənclərdə vətəndaş identikliyinin formalaşması amillərinin təhlilini zəruri edir.

**Gənclərin vətəndaş identikliyinin təşəkkülünü şərtləndirən subyektiv və obyektiv amillər.** Gənclərin vətəndaş identikliyinin formalaşması eyni zamanda bir çox amillərdən asılıdır. Daxili amillərdən motivlər, sərvət dəyərləri, maraqlar, əqidə, ideallar, dünyagörüşü, tələbatlar, ictimai münasibətlərin xarakter və istiqaməti, xarici amillərdən isə fikrimizcə, tələbələrin vətəndaş identikliyinin formalaşması üçün əlverişli şərait yaradan ali məktəblərin tərbiyə işi, orta və ali məktəblərdə vətəndaş tərbiyəsinin davamlılığı və ardıcıllığı məsələləri, xüsusilə vacibdir.

İlk olaraq gənclərin vətəndaş identikliyinin formalaşmasına təsir edən

daxili amilləri (sərvət dəyərləri, motiv, tələbat, maraq) nəzərdən keçirək.

Məhz gənclik dövründə həyat dəyərlərini təhlil etmək, bu dəyərlərə, eləcə də özünə və ətrafdakı insanlara özünün münasibətini formalaşdırmaq istəyi və tələbatı daha parlaq şəkildə təzahür edir. Öhdəlik, şərəf, ləyaqət, sədaqət, hüquq və s. kimi mənəvi - əxlaqi dəyərlərə maraq artır [2, 36].

Gənclərdə vətəndaş identikliyinin formalaşmasının ən mühüm amili fikrimizcə, şəxsiyyətin sərvət dəyərlərinin və ideallarının formalaşmasıdır. Belə ki, məhz sərvət dəyərləri gənc insanın şəxsiyyətinin inkişaf və tələbat istiqamətini müəyyən edən başlıca amildir [1, 96]. Elmi ədəbiyyatın təhlili əsas sərvət dəyərlərinin ilkin sosializasiyası zamanı mənimsənildiyini deməyə əsas verir. Lakin sonradan bu dəyərlər dəyişikliklərə məruz qala bilir. Tələbəlik sərvət dəyərlərinin dəyişilməsi baxımından ən həssas yaş dövrüdür. Belə ki, gənc insanın sosial rolunun (məktəblidən tələbəyə) dəyişilməsi baş verir. Bu səbəbdən artıq mövcud yaş dəyərlərini nəzərə almaqla, istinad ediləsi yeni dəyərləri tənzimləmək və inkişaf etdirmək lazımdır.

A.Q.Zdravomıslov qeyd edir ki, "dəyərlər sistemi mənalar dünyasıdır və bu dünya sayəsində insan öz empirik varlığından daha vacib nələrəsə qoşulur... məhz dəyərlər dünyasına qoşulduğu üçün insanın həyatı məna kəsb edir" [10, 34]. İnsanın sərvət dəyərləri vətəndaşlıq borcunun, humanizm, ədalət, bərabərlik, azadlıq ideyalarının mahiyyət və əhəmiyyətinin dərk edilməsinin göstəricisi kimi çıxış edir [1, 98].

Eyni zamanda insanın dünyaya münasibətinin başlanğıcı olan "həyat", "xeyirxahlıq", "həqiqət", "gözəllik" kimi ümumbəşəri dəyərlər də qeyd edilməlidir. İctimai şüurun ümumbəşəri dəyərləri təhsil prosesində Yaradıcı İnsanın, Mədəni və Əxlaqi İnsanın, İnsan - Vətəndaşın formalaşmasının əsasını təşkil edir. Şəxsiyyətin digər insanlara münasibətində təzahür edən həssaslıq, təmənnasızlıq, hörmət, xeyirxahlıq kimi dəyərlər də nəzərə alınmalıdır [4, 24]. Tələbə gənclərdə bu dəyərlərin olması fikrimizcə, ali məktəblərin vətəndaş identikliyinin təşəkkülü istiqamətindəki tərbiyə işinin uğurlu təşkilinin şərtidir. Bu zaman şəxsin daxili motivasiyasına diqqət edilməlidir.

Sərvət dəyərləri müəyyən istiqaməti təyin edir, bununla belə dəyər sistemi gənclərin baş verən dəyişikliklərə uygunlaşmasına imkan verən müəyyən çevikliyə də malik olmalıdır. Bu səbəbdən bugünkü gün gənc nəslin sərvət dəyərlərinin formalaşmasına yardımçı olan tədbirlərə xüsusi diqqət yetirilməlidir.

Qeyd edilən fikirlər bizi tələbə gənclərin vətəndaş identikliyinin formalaşması prosesində istinad edilməli olan dəyərləri müəyyən etməyə sövq edir [5, 204]:

- həssaslıq, təmənnasızlıq, hörmət, xeyirxahlıq;
- həyat, həqiqət, gözəllik;

- söz və seçim azadlığı;
- şəxsi rəy və münasibət;
- etimad (müxtəlif təşkilatlara üzvlük, onların fəaliyyətinin qiymətləndirilməsi);
- müxtəlif qruplarla qarşılıqlı əlaqədə olmaq arzusu və hazırlığı;
- tolerantlıq, münaqişələri razılaşdırılma prosedurlarının köməyi ilə həll etmək bacarığı;
- ictimai iştirak (cəmiyyətdə dəyişikliklərin mümkünlüyünə inam, vətəndaş fəallılığının vacibliyini dərk etmək);
- siyasi identifikasiya (birliklər və ya qruplara münasibətdə fərdin pozitiv, yaxud neqativ münasibəti);
- səriştə (ictimai –siyasi fəaliyyət formalarında iştirak).

Pedaqogikada ideal problemi şəxsiyyətin daxili strukturu ilə əlaqələndirilir, çünki ideal psixikanın mühüm törəməsi - şəxsiyyətin istiqaməti ilə üzvi şəkildə bağlıdır. Psixologiyada ideal - məqsədyönlülük, sədaqətlilik, dürüstlük, vətəndaşlılıq, fəal həyat mövqeyi kimi bir çox keyfiyyətlərin formalaşmasının mənbəyi kimi nəzərdən keçirilir. İdeal dəyişən, xüsusən də mənfi şərtlərə qarşı daxili dünyanın sabitliyini qorumaq, çətinlikləri aradan qaldırmaq, mürəkkəb problemləri həll etmək kimi məqsədləri nəzərdə tutur [9, 84].

Biz idealı ətraf aləmdə şüurlu orientasiyanın, şüur və davranış arasında birləşdirici əlaqənin, şəxsiyyət keyfiyyətlərinin "iyerarxiyası"nın təminatçısı, özünüdərketmə, özünün və digər insanların qiymətləndirilməsi meyarı kimi nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. İdeal eyni zamanda həm tərbiyənin məqsədi (ölkə vətəndaşının, hərtərəfli inkişaf etmiş şəxsiyyətin idealı), həm də vasitəsi (qəhrəmanlıq nümunəsi üzərində tərbiyə), həmçinin davranış tənzimləyicisi və fəallığın (zehni, əmək, mülki) bütün növlərinin mənbəyidir [6, 96].

Tələbə gənclərin vətəndaş identikliyinin formalaşmasında şübhəsiz ki, insanı bu və ya digər fəaliyyətə təhrik edən motivlər mühüm rol oynayır. Motiv – insanın tələbatlarından irəli gələn fəaliyyətə daxili təhrikdir. Motivasiya seçim və qərar qəbul etmə, alternativlərin təhlili və qiymətləndirilməsini əhatə edən mürəkkəb sosial – psixoloji, emosional və iradi aktdır. Həmçinin fəaliyyət başa çatdıqdan sonra aşkarlanan latent (gizli) motivasiya da ayırd edilir [6, 185].

Fikrimizcə, tələbə gənclərin motivasiya sisteminin formalaşması şəxsiyyətin inkişafının daxili şərtlərindən biridir. Bu fenomenin öyrənilməsi ilə B.Q.Ananiev, L.İ.Bojoviç, P.Y.Qalperin, M.S.Dmitrieva, N.V.Kuzmina, A.N.Leontiev, A.Maslou, A.B.Orlov, A.V.Petrovski, S.L.Rubinşteyn, Q.A.Fortunatov, P.M.Yakobson və başqaları məşqul olmuşdular [6, 192].

Hesab edirik ki, ali məktəbə daxil olmaq və müəyyən ixtisas seçimi

motivlərinin nəzərə alınması da vacibdir. Belə ki, bu fakt əslində insanın həyat yolunun müəyyən edilməsinə təsir edən və onun vətəndaş mövqeyini göstərən mühüm hadisə kimi dəyərləndirilə bilər. Bu mövzu rus alimləri tərəfindən ətraflı şəkildə öyrənilmişdir. Bizim üçün A.İ.Xodakovun tədqiqatı xüsusi əhəmiyyət kəsb edir. O, ali məktəbə daxilolma motivləri arasında aşağıdakıları fərqləndirir: ilkin (tələbənin təlim prosesinə şüurlu münasibətini xarakterizə edir, peşəkar sərvət dəyərlərini ehtiva edir); adekvat (professional hazırlığın bütün istiqamətlərinə dərin şəxsi məna verir); səthi (praqmatik, kariyerist mülahizələrə əsaslanan, başqalarının məsləhətlərindən asılı olan); daxili yetkin (daha çox dərk olunmuş və konstruktiv) [9, 54]. A.A.Verbitskinin tədqiqatını da nəzərdən keçirək. O, ali məktəb seçimi motivasiyasını bu prosesə xarici (ilkin motivasiya kimi çıxış edir) və daxili amillərin təsiri nöqteyi-nəzərindən təhlil edir. Xarici amillərə müəllif məşğulluq təminatı, peşə nüfuzu, əməkhaqqı səviyyəsini aid edir. Onun fikrincə daxili amillər ali məktəbdə qəbul edilmiş təlim və həvəsləndirilmənin təşkili səviyyəsindən (təhsil şərtləri, təqaüd məbləği, ictimai içlərdə iştirak) asılıdır [9, 58].

Bu gün ali məktəbin qarşısında duran əsas vəzifə tələbə gənclərdə fəal vətəndaş mövqeyinin formalaşdırılmasıdır. Bu səbəbdən qeyd edilən prosesin motivasiya tərəfini nəzərdən keçirməyi lazım bilirik.

Mütəxəssislərin əksəriyyəti gənclərin fəal vətəndaş mövqeyinin formalaşmasında motivlərin iki növünü fərqləndirir [5, 46]: praqmatik (əməli) motivlər (ictimai institutlara təsir göstərməklə öz mövqe və vəziyyətini yaxşılaşdırmaq); ideoloji motivlər (ideyaya sahib olub, onu istənilən vasitə ilə reallaşdırmaq istəyi).

Lakin təcrübə göstərir ki, müasir gənclərin fəallılıq səbəbləri əksər hallarda təsadüfi, kortəbii xarakter daşıyır. Tələbə gənclərdə vətəndaş fəallığının aşağı səviyyədə olması bununla əlaqələndirilə bilər.

Bu səbəbdən tələbə gənclərə diqqət yetirmək, onların enerjisini məhsuldar fəaliyyətə yönəltmək, ictimai həyatda iştirak təcrübəsini formalaşdırmaq lazımdır.

Fərdin vətəndaş identikliyinin formalaşması və təşəkkülünün mühüm şərtlərindən biri ölkənin ictimai həyatında iştirakdır. Hazırda gənclərin siyasət, hüquq, ictimai nizam-intizam qaydaları kimi mövzulara marağının artması müşahidə olunmaqdadır və dünyada baş verən sosial – iqtisadi, siyasi və geosiyasi dəyişikliklərlə bağlı cari hadisələrin fonunda aktuallıq kəsb edir. Gənclərin ictimai tədbirlərdə fəal iştirakı getdikcə adi hala çevrilir. Müasir gənclərin ictimai fəaliyyətə münasibəti isə təşəbbüskarlıq, məsuliyyət, cəsarət, şüurluluq kimi xüsusiyyətlərlə seçilir.

Gənclərin müəyyən qismində müşahidə edilən siyasi biganəlik, siyasi etiraz və onun ifrat forması olan yalnız müəyyən partiyalar və onların

liderlərinə qarşı deyil, bütövlükdə dövlət siyasətinə qarşı inamsızlıq kimi təzahür edən "absenteizm" daha artıq narahatlıq doğurur. Bu mövzu ilə bağlı aparılmış müxtəlif tədqiqatları (T.Aleksandrova, M.Koşelyuk, A.P.Baranov və b.) təhlil edib gənclərin siyasi passivliyinin aşağıdakı səbəblərini qeyd edə bilərik [7, 128]: "ümidlərin doğrulmaması amili" (gənc gözləntilərini doğrultmamısı səbəbindən siyasi proseslərə olan marağını itirir); "informasiya çoxluğu" (gənc informasiya həcminin çoxluğundan siyasi informasiyanı qavraya bilmir); "əhalinin güc strukturlarına inamsızlığı"; "birləşdirici ideyanın yoxluğu" (cəmiyyətin parçalanması onun bir hissəsinin, o cümlədən iqtisadi fayda və dəyərlərə yad olan gənclərin ölkənin siyasi həyatına qatılmaqda maraq kəsb etməməsinə səbəb olur; obyektiv səbəblər üzündən seçkilərdə iştirak etməmək; apolitiklik (siyasətə marağın olmaması); ölkədəki vəziyyətə etiraz; siyasi məyusluq və yorğunluq və s.

Yuxarıda göstərilənlər gənclərə diqqət ayırılmasının, onların ölkənin ictimai həytına cəlb edilməsinin zəruri olduğu qənaətinə gəlməyə imkan verir. Bu baxımdan gənclərin ölkənin siyasi – ictimai həyatında fəal iştirakının vacibliyini qeyd edən A.V.Fahrutdinovanın fikirləri maraq kəsb edir. Yerli və xarici təcrübəni təhlil edərək müəllif qeyd edir ki, "bir çox ölkələrdə tələbələrə cəmiyyətin həyatında fəal şəkildə iştirak etmək imkanı verilir və bu da onların özlərini cəmiyyətin tamhüquqlu üzvləri kimi hiss etmələrinə səbəb olur. Onlar təşkilatçılıq bacarıqlarına yiyələnir, qərar qəbul etməyi öyrənir, siyasi həyatda iştirakın bacarıq və vərdişlərini mənimsəyirlər". Beləliklə, individuallıq hissini saxlamaqla tələbələrdə fəal vətəndaş mövqeyi formalaşır" [11, 167].

Gənclərin vətəndaş identikliyinin formalaşmasında fikrimizcə, şəxsiyyətin fəallıq mənbəyi kimi meydana çıxan tələbatları kimi daxili şərt xüsusi aktuallıq kəsb edir. Bu şərtin (tələbatın) formalaşması üçün ali məktəblərdə yüksək vətəndaş keyfiyyətlərinə malik gənclərin tələb olunduğu mühit yaradılmalıdır. N.D.Nikandrov fəal, təşəbbüskar, yüksək səviyyədə ixtisaslaşmış, qanunlara tabe olan və məhz bu səbəbdən uğurlu olan gənclərin – vətəndaşların formalaşması istiqamətində məqsədyönlü iş aparılmasının vacibliyini qeyd edir [12, 67]. Bu prosesin uğurlu olması üçün fikrimizcə, yalnız tələbatları "stimulyasiya etmək", formalaşdırmaq deyil, həmçinin onların sonrakı, gələcək inkişafına töhfə verilməlidir. Tələbələr cəmiyyətdə fəal vətəndaş mövqeli şəxslərə daha çox ehtiyac duyulduğunu və bunun onların gələcək peşəkar inkişafına təkan verəcəyini anlamalıdırlar. Belə olan halda tələbələrdə müvafiq bilik və keyfiyyətlərin əldə edilməsi tələbatı yaranacaqdır.

Tələbələrin vətəndaş identikliyinin formalaşması prosesində tələbatların təzahür forması olan maraqların da rolu nəzərə alınmalıdır. Q.M.Kodjaspirova və A.Y.Kodjaspirovun qeyd etdiyi kimi, bu forma reallığın daha

dolğun və dərin əks olunmasına, yeni faktlarla tanışlığa, fəaliyyətə təhrikə və şəxsiyyətin fəallaşmasına səbəb olur [13, 45]. Bu səbəbdən bu keyfiyyətdən istifadə və onu inkişaf etdirmək son dərəcə vacibdir. Maraq emosiya və hisslərlə (onların varlığı marağın əlamətidir və əksinə) müşayiət olunur. Bu keyfiyyətə istinad edərək, tərbiyə işinin təşkili zamanı bu xüsusiyyətlər nəzərə alınmalıdır: maraqların inkişafı ali məktəblərdəki atmosferdən bilavasitə asılıdır (optimizm ruhu, yaradıcılıq, xoşniyyətlilik); tələbələrdə emosiya yaratmaq zərurəti; yeniliklərin rolunun nəzərə alınması. Bu şərtlərin gözlənilməsi tələbə gənclərin vətəndaş identikliyinin formalaşması və təşəkkülü prosesinə müsbət təsir göstərir.

Daxili amilləri nəzərdən keçirərək, tələbə gənclərin vətəndaş identikliyinin formalaşması prosesinin təşkilinin zəruri şərtlərini müəyyən etdik. Lakin prosesin effektivliyi yalnız daxili amillərlə məhdudlaşmayıb, şəxsiyyətin formalaşmasına bilvasitə təsir göstərən ətraf mühit, ailə, orta və ali məktəblərdə tərbiyə işi ilə də şərtlənir.

Milli ənənələrə sadiq, ümumbəşəri dəyərlərə söykənən, xalqına, Vətənə, dövlət və dövlətçiliyə bağlı vətənpərvər vətəndaşların formalaşdırılmasında, şübhəsiz ki, orta və ali məktəblərdə tərbiyə işi mühüm rol oynayır.

"Vətəndaş identikliyi" anlayışı və onun formalaşmasında təhsil və tərbiyənin rolu problemləri ətrafında ilkin müzakirələrə Sokrat, Platon, Herodot, Aristotel kimi qədim filosofların əsərlərində də rast gəlmək mümkündür [9, 8 – 9].

Sokrat vətəndaş identikliyinin formalaşmasında təhsilə mühüm yer ayırır, insanın əsas vəzifəsinin özünüdərk ("Özün özünü dərk et") olduğunu qeyd edərək təhsilin (biliyin) nəzəri deyil, ilk növbədə praktiki əhəmiyyət daşıdığını sübut edirdi. Sokrata görə, təhsilin (özünüdərkin) iki funksiyası var: birincisi – şəxsi identikliyin formalaşması (insanın özünü təkmilləşdirməsi), ikincisi – sosial (vətəndaş) identikliyinin formalaşması, insanın vətəndaşa, polisin nümayəndəsinə çevrilməsidir. Sokrat polisin siyasət həyatında fəal iştirakını hər bir insanın mənəvi borcu hesab edirdi.

Platonun əsərlərində vətəndaş tərbiyəsi problemi mühüm yer tutur. "İdeal dövlət" əsərində filosof gənc nəslin vətəndaş tərbiyəsi sistemini təsvir edir, təhsilin hadisələrə düzgün baxış (mühakimə) və düzgün davranışı (yaşamaq sənəti) öyrətmək kimi iki vəzifə daşıdığı fikrini irəli sürərək, təhsilin əsas mahiyyətinin sosial (vətəndaş) identikliyinin formalaşması olduğunu göstərir.

Aristotelə görə, insan şüuru subyektiv və fəaldır və sosializasiya (sosial identikliyin formalaşması) individuallaşma (fərdi identikliyin formalaşmasına səbəb olan daxili kamillik cəhdi) olmadan mümkün deyil. Harmonik insan iki mənbədən – mükəmməlliyə daxili səy və cəmiyyət, yaxud dövlət tərəfindən fəzilətlərə xarici motivasiyadan qaynaqlanır. Aristotel

identiklik tiplərini təfəkkür növləri ilə əlaqələndirirdi: nəzəri, praktik və yaradıcı. İnsanın identikliyinin əsasını "rasionallıq" kimi kateqoriya təşkil edir. Təhsilin verdiyi nümunələrə əsaslanaraq, insan öz şəxsi davranışını şüurlu şəkildə qurur. Aristotel insanın identikliyinin formalaşmasında incəsənətə böyük əhəmiyyət verirdi. O, "İncəsənət haqqında" traktatında təhsil sahəsində forma və məzmun problemini qoyaraq, qeyd edirdi ki, yalnız cəlbedici formaya malik olan təhsilin məzmunu insan tərəfindən mənimsənilir. Aristotel öyrənmədə təkcə universallaşmanın deyil, fərdiləşmənin də vacibliyini vurğulayırdı.

Vətəndaş tərbiyəsi problemi Q.Kerşenşteynerin əsərlərində özünün daha geniş inkişafını tapır. Q.Kerşenşteyner əmək və əxlaq tərbiyəsini tərbiyənin əsas vasitəsi, punktuallıq, vicdanlılıq, dözümlülük, diqqətlilik, intizamlılıq, özünüidarəetməni isə ən yaxşı əxlaqi keyfiyyət hesab edirdi. Eyni zamanda o, göstərirdi ki, məhz məktəb dövlət vətəndaş tərbiyəsinin təməli olmalı, davranışın əsas qaydalarını formalaşdırmalı, mədəni dəyərləri və dövlət – siyasi idealları təsdiq etməlidir. Müxtəlif biliklər, o cümlədən vətəndaşın hüquq və vəzifələri doktrinasının onların mənimsənilməsinin məcburi əzbərçiliklə bağlı olmadığı təqdirdə faydalı ola biləcəyini, tələbələrin vətəndaş keyfiyyətlərinin formalaşması üçün əlverişli şərait yaradılmasının zəruriliyini qeyd edirdi. Kerşenşteyner ilk dəfə vətəndaş təhsili və vətəndaş tərbiyəsi anlayışlarını fərqləndirmişdi [9, 18 – 19].

V.N.Vlasova vətəndaş tərbiyəsi anlayışının mahiyyətini açıqlayaraq, onun kifayət qədər mürəkkəb olan tərkib hissələrini ayırır: "vətəndaşlılıq", "tərbiyə", "şəxsiyyət". Müəllif vətəndaş tərbiyəsi vəzifələrinin üç səviyyəsini müəyyən edir: ümumilikdə şəxsiyyətin sosial formalaşma səviyyəsi; pedaqoji prosesin gedişində ümumi qəbul edilmiş dəyərlərin pedaqoji şərhinin səviyyəsi; təhsil mühitinin ən vacib komponenti kimi dəyərlərin fəaliyyət səviyyəsi [9, 29].

A.S.Qayazov tələbə gənclərin vətəndaş tərbiyəsi nəzəriyyəsi və təcrübəsini nəzərə alaraq hesab edir ki, vətəndaş identikliyinin formalaşmasının mahiyyəti formalaşmaqda olan şəxsiyyət ilə onun coğrafi, etnik, mədəni, o cümlədən, dini ideyalar məcmusu olan Vətəni arasında əlaqə yaradılması və saxlanılmasından ibarətdir. Onun fikrincə, bu əlaqə cəmiyyətdə baş verən sosial – siyasi proseslərin möhürünü özündə daşıyır [7, 49].

L.K.Qrebenkina, İ.P.Qukaev, S.N.İkonnikova, L.İ.Mişenkonun fikrincə, vətəndaş identikliyinin formalaşması prosesi özünə bir – biri ilə sıx əlaqədə olan və müəyyən həcmdə vətəndaşlıq biliklərinin ötürülməsini, mənimsənilməsini təmin etməklə müəyyən şəxsiyyət keyfiyyətlərinin formalaşmasını şərtləndirən iki aspekti daxil edir: tərbiyə və təhsil. Onlar vətəndaş identikliyinin formalaşdırılması məqsədini Vətən və onun vətəndaşlarının taleyi üçün məsuliyyət daşıdığını dərk edən, müstəqil mühakimə yürütmək

və qərar qəbul etmək qabiliyyətinə malik şəxsiyyətin formalaşdırılmasında görürlər [9, 29 – 30].

Tərbiyə işinin təşkili prosesində birinci kurs tələbələrinin adaptasiya prosesinə xüsusi diqqət yetirilməlidir. Belə ki, kəskin mühit dəyişikliyi stress və əsəb pozuntularına səbəb ola bilər. Əsas çətinliklər sırasında məktəb kollektivindən ayrılma ilə bağlı yaşanılan narahatlıqlar, müstəqil işləmək bacarıq və vərdişlərinin yoxluğu, fəaliyyət və davranışın tənzimlənməsinə nəzarət edə bilməmək və s. qeyd edilə bilər. Buna görə təhsil müəssisələri qarşısında duran əsas vəzifə, əlverişli şərait yaratmaqla birinci kurs tələbələrinin yeni fəaliyyət növlərinə və ünsiyyətə cəlb edilməsidir [9, 142].

Tələbə gənclər özünütəyinetməyə can atma ilə fərqlənirlər. Onu da qeyd edək ki, insanın liderlik keyfiyyətləri məhz gənclik yaşında daha aydın təzahür etməyə başlayır. Tələbələr cəmiyyətdə öz yerlərini tutmaq və rol və vəzifələrini təyin etməyə səy göstərirlər. Bu səbəbdən ali məktəblərin tərbiyə işində yaş xüsusiyyətləri mütləq şəkildə nəzərə alınmalı və gənclər onlarda maraq və məhsuldar fəaliyyətlə məşqul olmaq istəyi yaratmaq, fəal vətəndaş mövqeyi nümayiş etdirmək istiqamətində yönəldilməlidirlər. Y.O.Samarin qeyd edir ki, tələbəlik təsəvvürlərin böyük əksəriyyətinin nəzəri sahədən çıxıb, əməli sahəyə daxil olduğu dövrüdür [9, 128].

Sözsüz ki, gənclərin vətəndaş identikliyinin formalaşmasına xarici amillər də mühüm təsir göstərir. Sosial – iqtisadi və siyasi vəziyyətin qeyri – müəyyənliyi ölkədə qeyri - sabit mühit formalaşdırır. Aydın məsələdir ki, gənc onun valideynləri və müəllimlərinin yaşadığı şəraitdən fərqli bir mühitdə yaşayacaq. Burdan yola çıxaraq toplanmış təcrübənin sadəcə olaraq gənclərə ötürülməsi kifayət etmir, onlarda təşəbbüskarlıq, müstəqil fəaliyyətə hazırlıq, onlara tanış olmayan şəraitdə qərar qəbul etmə bacarığı kimi keyfiyyətləri formalaşdırmaq lazımdır. Belə olan halda ali məktəb qarşısında duran mühüm vəzifə yaradıcı təşəbbüs, müstəqillik və fəal vətəndaş mövqeyinə istinad edən təlim strategiyasını işləyib hazırlamaqdır.

Gənclərin vətəndaş identikliyinin formalaşması və təşəkkülü prosesində orta və ali məktəblərdə tərbiyə işi xüsusi aktuallıq kəsb edir. Fikrimizcə, orta və ali məktəblərdə, xüsusilə vətəndaş tərbiyəsinə daha çox diqqət yetirilməlidir. Bu, gənclərin vətəndaş identikliyinin formalaşmasının əsas amilidir.

Şagirdlərin heç də hamısı ali məktəblərə qəbul olmur, lakin bütün şagirdlər məktəb səviyyəsində özünəməxsus vətəndaşlıq və vətənpərvərlik hazırlığı keçirlər. Məktəb (xarici amil olaraq) fəal vətəndaş mövqeyinin yaranması və şəxsiyyətin bu xüsusiyyətinin vacibliyinin dərk edilməsinin başlanğıc bünövrəsidir. Ali məktəbin vəzifəsi isə bu istiqamətdəki işi davam etdirmək və gənclərin vətəndaş kimi yetişməsinə təsir göstərməkdir.

Şəxsiyyətin orta məktəbdəki inkişafı gənclərin vətəndaş identikliyinin

formalaşmasının mühüm xarici amili kimi çıxış edir.

Sosial – iqtisadi və siyasi vəziyyət sözsüz ki, şəxsiyyətin bütövlükdə formalaşmasına təsir göstərir. Bu səbəbdən ali məktəblərdə şəxsiyyətin tərbiyə edilməsi prosesində tələbələrdə dözümlülük, fəallıq, çeviklik kimi mühüm keyfiyyətlərin formalaşdırılmasına diqqət yetirilməlidir. İ.S.Kon qeyd edir: "həddindən artıq mobil cəmiyyətdə yaşamaq və uğurlu fəaliyyət göstərmək üçün fərd şəxsiyyətin dözümlü möhkəm nüvəsinə, dünyagörüşünə, sosial və mənəvi əqidəyə malik olmalıdır" [2, 62].

Sözsüz ki, orta və ali məktəb xarici mühit və reallığı kəskin şəkildə dəyişə bilməz, lakin tələbələrin vətəndaş identikliyinin formalaşması üçün əlverişli şərait yarada bilər. Bu səbəbdən, orta və ali məktəb sistemləri xarici mühitin mənfi təsirini zəiflədən və vətənpərvər, öz Vətəninin layiqli, fəal vətəndaşını formalaşdıran tərbiyə işinin təşkilinə yönəlməlidir.

Tələbə gənclərin vətəndaş identikliyinin formalaşması prosesini nəzərdən keçirərkən dünyadakı işlərin mövcud vəziyyətindən qaynaqlanan bir çox problemlərlə rastlaşırıq. Şəxsiyyətin vətəndaş identikliyinin formalaşması prosesini ləngidən şərait və xarici amillər və həmçinin bu problemlərin həllində ali məktəbin rolu nəzərdən keçirilməlidir.

Hazırda mövcud institutların transformasiyası ilə əlaqədar olaraq identifikasiya prosesləri istər yerli, istərsə də qlobal səviyyədə fəsadlara məruz qalır. Bu baxımdan xüsusi sosial subyekt kimi gənclərə xüsusi diqqət yetirilməlidir, çünki cəmiyyətin və dövlətin inkişaf perspektivi məhz gənclərin identifikasiya elementlərinin keyfiyyət vəziyyətindən asılıdır.

Hal-hazırda gənclərin vətəndaş identikliyinin formalaşması prosesi aşağıdakı səbəblərlə fəsadlaşır [3, 54]:

- Maddi çətinliklər, məişət problemləri qismində təzahür edən gənclərin sosial müdafiəsinin aşağı səviyyəsi;
- Ənənəvi mənəvi dəyərlərin itirilməsi;
- Vətəndaş identikliyinin formalaşması istiqamətində təhsil və mədəni – maarif tədbirlərinin təşkili, millətlərarası ünsiyyət mədəniyyətinin aşılanması istiqamətində çatışmazlıqlar;
- Lokal mədəniyyətlərə qloballaşmanın göstərdiyi birləşdirici təsir və s.

Belə vəziyyət sosioloqların fikrincə, vətəndaş identikliyi böhranı yaradır və gənclər mühitində hüquqi və vətənpərvərlik şüurunun deformasiyası tendensiyalarının üstünlük təşkil etdiyi "risk modeli" kimi şərh edilən müvafiq vətəndaş identikliyi modeli formalaşdırır [3, 56].

Ən vacib amillərdən biri kimi müasir gənclərin "məlumatlılıq səviyyəsi" çıxış edir. İnsan öncə biliklərə sahiblənməlidir, lazımi biliklər olmadan hər hansı informasiya qiymətləndirilə, başa düşülə və istifadə edilə bilməz. Eyni zamanda təkcə informasiyanın əldə edilməsi deyil, həcmi, etibarlılığı və obyektivliyi də mühüm əhəmiyyət kəsb edir. Bu məsələ ilə bir çox

alimlər məşğul olmuşlar. Onlardan biri S.Malkonri hesab edir ki, fəal vətəndaş möqeyindən yalnız o halda danışmaq olar ki, gənclər yaxşı məlumatlı və təhsillidirlər [7, 38].

Fikrimizcə, müasir informasiya cəmiyyətində nəinki etibarlı informasiya əldə etmək, həmçinin ümumilikdə informasiya çoxluğu müşahidə edilir və bugünkü gün xüsusi informasiya sosiallaşmasından keçən və artan qeyri-müəyyənlik şəraitində yaşaya biləcək gənc nəsil yetişir. Gələcəkdə L.Vıqotskinin "inkişafın sosial vəziyyəti" adlandırdığı belə bir vəziyyət cəmiyyətdə informasiya sürətləndiricilərinin xüsusi təbəqəsinin yaranmasına səbəb ola bilər. Məhz onlar böyük ehtimalla gənclərdə dəyər yönümlərinin dəyişməsinə təsir göstərə bilər [3, 28].

Aydın məsələdir ki, bugünkü gün İnternet dəyər və davranış modellərinin əsas ötürücüsü olmaqla bütün yaş qrupundan olan insanlara, xüsusən də gənclərə güclü təsir göstərir.

Hesab edirik ki, bu halda ali məktəb dünyagörüşünün formalaşması prosesində fərdin əldə etdiyi informasiyanı redaktə etməklə tənzimedici rol oynaya bilər.

Ali məktəbin vəzifəsi tələbələri maarifləndirmək, zəruri informasiya axtarışına yönəltmək, tələbələrdə maraq yaradaraq gələcəkdə onların dünyagörüşü və vətəndaş mövqeyinin formalaşmasına təsir göstərəcək zəruri informasiya mənbəyi olmaqdır.

Ali məktəb tələbələrinin tədris və asudə vaxtları arasında inteqrasiya əlaqələrinin qurulmasında müasir təhsil texnologiyalarından fəal istifadə onların informasiya cəmiyyətində həyata hazırlanması üçün zəruri olan tədris nəticələrinin əldə olunmasını təmin edir.

Bu məsələdə, həmçinin tələbələrin hüquqi cəhətdən maariflənməsinə də lazımi diqqət yetirilməlidir. Belə ki, cəmiyyətin müasir inkişafı, xüsusən gənclərin kifayət qədər yüksək səviyyədə hüquq savadlılığını tələb edir. Gənclərin hüquqi savadlılıq və mədəniyyət səviyyəsinin yüksəldilməsi və hüquq tərbiyəsinə diqqət edilməlidir. Şəxsin ümumi sosializasiya prosesinin nə dərəcədə uğurlu keçməsi, onun cəmiyyətin hüquqi əsaslarını nə dərəcədə bacarıqla mənimsəyəcəyindən asılıdır. Öz hüquqlarını bilən və dərk edən gənc onların pozulmasına imkan verməz. Eyni zamanda başqalarının hüquqlarını tanımaq və onlara hörmət etmək də vacibdir [9, 121].

Lazımi sərvət dəyərlərinin formalaşmasına, tələbələrin motivasiyasına, layiqli, fəal vətəndaş keyfiyyətlərinin mənimsənilməsinə tələbatın hiss ediləcəyi atmosferin, maraq və istəklərin yaradılmasına diqqət yetirilməlidir. Eyni zamanda tələbələrin onların fəal vətəndaş mövqeyinin formalaşmasına təsir göstərən lazımlı və düzgün informasiya ilə təmin olunması, bu informasiyanın təhlil edilməsi və əldə edilmiş informasiyanın yeni tapşırıq və problemlərin həllində istifadəsi də az əhəmiyyət daşımır.

Hesab edirik ki, Azərbaycan gənclərinin vətəndaş identikliyinin formalaşmasının hazırkı mərhələsi vətənpərvərlik, mənəviyyat, hüquq prinsiplərinə əsaslanan ümumi dəyərlərin dərk edilməsi; cəmiyyətin vətəndaş təbəqəsinin qurulmasında dövlətin aktiv iştirakının qəbulu; sosial yetkinlikliyə malik şəxsiyyətin formalaşması ilə xarakterizə olunur. Bu halda vətəndaş cəmiyyətinin yaratdığı yeni imkanlar əsasında gənclərin vətəndaş identikliyinin formalaşmasının yeni mexanizmlərinin işlənib hazırlanmasına ehtiyac var. Vətəndaş cəmiyyəti müasir insanın sosializasiyası və özünütəyinetmə proseslərinin harmonikliyinin vacib şərtidir. Belə ki, məhz vətəndaş cəmiyyətinin ictimai təşkilatları, strukturları gənclərin sosial əhəmiyyətli fəaliyyətə cəlb olunmasına imkan verir.

Yerli və xarici təhsil təcrübəsində gənclərin vətəndaş identikliyinin formalaşdırılmasının aksioloji, multikultural, etnomədəni və fəaliyyət yanaşmaları üstünlük təşkil edir. Təhsil səviyyəsindən asılı olmayaraq, gənclərin vətəndaş identikliyinin formalaşmasının əsas istiqamətləri mənəvi - əxlaqi, dəyər – məna, tarixi, siyasi – hüquqi, vətənpərvərlik, peşəyönümlü, ekoloji tərbiyədir [3, 26].

Gənclər tərəfindən müvafiq biliklərin mənimsənilməsinə, vətəndaş davranışının real təcrübəsinin formalaşmasına, vətəndaş fəaliyyətinin dəstəklənməsinə və inkişafına xüsusi diqqət yetirilir. Bununla belə, əksər hallarda gənclərin vətəndaş identikliyinin formalaşması kompleks şəkildə olmayıb, onun yalnız müəyyən tərəflərinə toxunur. Bir çox tədqiqatçıların gənclərin vətəndaş identikliyinin formalaşmasında ailənin rolunu vurğulamasına baxmayaraq, ailə və təhsil təşkilatları arasında qarşılıqlı əlaqə potensialı zəif həyata keçirilir və bu səbəbdən müasir dövrdə valideynlərin uşağın şəxsiyyətinin formalaşmasına cəlb edilməsi, uşağa ətrafdakılara hörmət, ədəblilik, dürüstlük, çətinlikləri dəf etməyə hazır olmaq və həyat nikbinliyi kimi əxlaqi keyfiyyətlərin aşılanması problemi xüsusi aktuallıq kəsb edir. Valideyn tərbiyəsi strategiyasını müəyyən etmək, lazım gəldikdə isə ona müəyyən düzəlişlər etmək məqsədilə ümumi təhsil müəssisələrinin bazasında valideynlərin ciddi məqsədyönlü hazırlıq keçməsinə böyük ehtiyac var. Məktəbin üzərində ailənin tərbiyə potensialını artırmaq və onun sosiallaşma resursunu inkişaf etdirmək, uşaqların tərbiyəsində valideynlərə vaxtında ixtisaslı yardım göstərmək kimi mühüm vəzifə durur.

Vətəndaş identikliyinin təşəkkülü ictimai fəallıq və gənclərin təşəbbüsü məsələləri ilə əlaqəlidir ki, bu da təkcə artıq formalaşmış vətəndaş identikliyinin nəticəsi ola bilməz, həm də onun yenidən istiqamətləndirilməsini müəyyən edə və ya onun inkişaf yolunda mühüm mərhələ ola bilər. Gənc nəsil nə qədər təşəbbüskardırsa, ortaya çıxarılacaq (gənclik ambisiyaları ilə birləşən yaradıcılıq, sosial məsuliyyətlə birləşən cəsarət) yaradıcı potensialı o qədər çoxdur. Gənc nə qədər çox inkişaf edirsə, onun vətəndaş mövqeyini

ifadə etməsinin çoxşaxəli və fəal yolları da bir o qədər özünü göstərir [3, 27].

Hazırda gənclər vətəndaş identikliyinin təşəkkülü və təzahürü üçün hər cür lazımi şərtlərə malikdir. Vətəndaş cəmiyyəti müasir demokratik şəraitdə ölkənin əvvəlki inkişaf mərhələlərindən fərqli olaraq, gənclərə vətəndaş mövqeyini nümayiş etdirmək üçün daha geniş imkanlar yaradır. Bununla belə, bu, həlledici dərəcədə ilk növbədə gənclərin özündən, onların iradəsindən, cəsarətindən, marağından, məqsədyönlülüyündən, təşəbbüskarlığından asılıdır.

Təhsil - tərbiyə prosesində səmərəlilik, şagird və ali məktəb tələbələrinin ictimai həyatda fəal iştiraka cəlb olunmasına, bu cəlbetmə vasitəsilə müsbət vətəndaş davranışı təcrübəsi əldə etməyə, ümumi problemlərin konstruktiv həlli üçün ətrafdakılar ilə qarşılıqlı əlaqədə olmağa imkan yaradan amillər və şərtlər məcmusunu özündə ehtiva edən vətəndaş formalaşması üçün xüsusi tədris məkanının mövcudluğu ilə müəyyən edilir.

Vətəndaş hazırlığının müasir vəzifələri, ölkənin məsuliyyətli vətəndaşlarının tərbiyəsi həm məzmunda, həm də tədris metodlarında təhsilə yanaşmaların dəyişdirilməsini tələb edir ki, bu da öz növbəsində müəllimin mövqeyinin, onun peşə hazırlığı və ixtisasartırma sistemimində dəyişikliklərin edilməsini şərtləndirir. Bununla belə, qeyd etmək lazımdır ki, gənclərin vətəndaş tərbiyəsində pedaqoji kadrların hazırlanmasına, onların xüsusi hazırlıq sahəsində ixtisaslarının artırılmasına böyük ehtiyac vardır [9, 74].

Təhsil müəssisələrində vətəndaş tərbiyəsi probleminin uğurlu həlli daha çox sistemin təşkili prinsiplərinə bağlıdır və sistemin aparıcı prinsipi millilik olmalıdır. Tərbiyə prosesində hər zaman güvəniləcək, hamı üçün ümumi olan yalnız bir anadangəlmə meyllik var ki, bu da millilikdir. Millətin özü tərəfindən yaradılan və milli başlangıc və dəyərlərə əsaslanan tərbiyə, mücərrəd ideyalara əsaslanan və ya başqa millətlərdən götürülmüş ən yaxşı sistemlərdə belə olmayan tərbiyəvi gücə malikdir.

Vətəndaş tərbiyəsində milli xüsusiyyətlər nəzərə alınmaqla millilik prinsipi şagird və tələbələrin fəal iştirakını nəzərdə tutur. Məhz fəaliyyətdə və fəaliyyətlə tərbiyə, tərbiyə prosesinin əsasını təşkil edir.

Vətəndaş tərbiyəsində mühit yanaşması bu prosesin özəlliyini səciyyələndirir. Təhsil müəssisələrinin sosial - mədəni əhatəsi (teatr, muzey, maddi tarixi-mədəni irs nümunələri və s.) vətəndaş identikliyinin təşəkkülünə xidmət etməlidir. Təhsil müəssisələrinin ətraf mühitlə qarşılıqlı əlaqəsi, gənclərin yerli ərazinin ictimai həyatına cəlb edilməsi vətəndaşlıq tərbiyəsi üzrə fəaliyyətin xarakterini müəyyən edir [7, 162 ].

İnkişaf etmiş vətəndaşlıq borcu və məsuliyyəti, demokratik cəmiyyətin hüquq və öhdəliklərinin qəbul edilməsi, onun qanunlarına hörmət də daxil olmaqla, sosial əhəmiyyətli şəxsiyyət xüsusiyyətlərinin məcmusu ilə

xarakterizə olunan azad demokratik dövlət vətəndaşının formalaşması tərbiyə sisteminin aparıcı məqsədidir.

Vətəndaş formalaşmasını tərbiyənin məqsədi kimi qəbul edərək, bu işin istiqamətlərini müəyyən etmək lazımdır. Gənclərin vətəndaş inkişafında təlim-tərbiyə fəaliyyəti ilə əks olunan aşağıdakı vəzifələr xüsusi əhəmiyyət kəsb edir [3, 30]:

1. Gənclərin dünyagörüşünün artırılması, həyatın mənasının müəyyən edilməsi, öz həyatlarına dəyər verilməsinin aşılanması. Vətəndaş tərbiyəsi müəyyən ideallar və dəyərlər toplusu üzərində qurulur. Hesab edirik ki, ümumbəşəri dəyərlər gənclərin vətəndaş kimi tərbiyə olunmasında sistem formalaşdıran amil kimi çıxış edə bilər.

Aksioloji cəhətdən insan mütləq dəyərdir, ən yüksək substansiyadır, "hər şeyin ölçüsüdür". Bu universal konsepsiya hər bir gəncin real həyat oriyentirinə çevrilməlidir. Bu anlayışın pedaqoji mənası ilk növbədə pedaqoqların özləri tərəfindən dərk edilməlidir. Bu tələbələrlə işin düzgün istiqamətlərini və formalarını (problemli seminarlar, ədəbi mənbələrin müzakirələri və s.) seçməyə kömək edəcəkdir. Bu işdə cəmiyyətin inkişafında insanın rolunun sistemli şəkildə nümayiş etdirilməsi böyük əhəmiyyət kəsb edir. Ölkə alimlərinin elmi nailiyyətləri və şücaətləri ilə tanışlıq gənclərdə mənəvi idealın formalaşmasına, onlarda vətəndaş keyfiyyətlərinin tərbiyəsinə kömək edir.

Humanitar biliklər insan haqqında bütün biliklərin məcmusu, onun ətraf aləmə münasibətinin normaları kimi, vətəndaşın, onun baxış, əqidə və ideallarının məqdsədyönlü formalaşmasının ən mühüm mənbəyidir.

Humanitar fənlər arasında ən mühüm rol sosial elmlər, demoqrafiya, hüquq, iqtisadiyyat elementlərini özündə birləşdirən, müəyyən dərəcədə kompleks fənn olan vətən tarixinə aiddir.

Vətəndaş tərbiyəsinin prioritet vəzifəsi gəncləri dövlət qanunları ilə tanış etmək, onların icrası üçün obyektiv ehtiyacı aşkar etmək, vətəndaş məsuliyyətini formalaşdırmaqdır. Bu problemin həlli vətəndaş fəaliyyətinə tələbatın inkişafına kömək edir. Bu tələbə gənclərin müxtəlif növ ictimai fəaliyyətlərdə, rayonun, şəhərin siyasi və sosial-iqtisadi həyatında iştirakı ilə həyata keçirilir.

2. Tələbə gəncləri öz Vətəninin mədəniyyəti ilə tanış etmək, yüksək orijinal mədəni (etnomilli) və mənəvi dəyərlərə tələbatın formalaşdırılması vətəndaş tərbiyəsinin digər strateji vəzifəsidir.

3. Ümumbəşəri və milli normaların formalaşdırılması (xeyirxahlıq, qarşılıqlı anlaşma, tolerantlıq və s.). Bu vəzifə əsl vətəndaşa məxsus keyfiyyətlərin tərbiyə edilməsini əks etdirir.

4. Daxili azadlığın inkişafı, davranışda obyektiv özünüqiymətləndirmə və özünütənzimləmə qabiliyyəti, özünəhörmət.

Bu problemin həlli tələbə gənclərdə azadlıq, vətəndaş və insan ləyaqəti hissinin formalaşdırılmasına yönəlib. Təəssüf ki, azadlıq anlayışı çox vaxt yalnız sahibkarlıq azadlığı, hüquq və vəzifələrin yerinə yetirilməsindən, dövlətin qanunlarının və hüquqi normalarının həyata keçirilməsindən müəyyən qədər azad olmaq hissi ilə əlaqələndirilir.

5. Həyatda ali dəyər kimi əməksevərliyin tərbiyəsi, yaradıcı əməyə tələbatın inkişafı vətəndaş tərbiyəsinin ümumi sisteminin ayrılmaz vəzifəsidir. Vətən və Əmək sevgisinin əsas mənəvi-etik dəyər təzahürü insanın sosial, şəxsi, mənəvi və iqtisadi cəhətdən məsuliyyətli davranışını şərtləndirən vətənpərvərlik və əməksevərlikdir.

6. Gənclərin vətəndaş tərbiyəsinin daha bir mühüm zəmini sağlam həyat tərzi tələbatının tərbiyəsi və inkişafıdır. Sağlamlığa qənaət insan üçün ən mühüm dəyərdir, hansı ki, bütövlükdə millətin sağlamlığını təşkil edir. Gənclər xalqın tarixinin tərkib hissəsi kimi öz ailəsinin, nəslinin tarixini dərindən bilməli, əcdadlarının obrazlarını, töhfələrini öyrənməli, gözəl ənənələrinin qorunub saxlanmasının və çoxaldılmasının qayğısına qalmalıdır. Bu insanın vətəndaş mədəniyyətinin mühüm tərkib hissəsidir.

Təlim prosesində vətəndaş tərbiyəsinin uğuru bütün didaktik prinsiplərə əməl olunmasından asılıdır, lakin artıq qeyd etdiyimiz kimi, millilik prinsipi xüsusi əhəmiyyət kəsb edir. Millilik prinsipi təməl tərbiyənin bütün məzmununa nüfuz edir. O, xalqın dili, mədəniyyəti, adət - ənənələri ilə ayrılmaz şəkildə bağlıdır.

Vətəndaş identikliyinin formalaşması prosesində tərbiyə ilə yanaşı təhsil də mühüm rol oynayır, başqa sözlə desək tərbiyə və təhsil bu prosesdə üzvi surətdə birləşir. Təhsil məkanında dünyanın bütöv mənzərəsi formalaşır, cəmiyyətin və insanın mövcuduğu və inkişafının qanunauyğunluqları və mexanizmləri öyrənilir. Bu, indiki və gələcək üçün başlanğıc məkandır.

Gənclərin vətəndaş baxışlarının və inanclarının formalaşmasında dünyanın müasir mənzərəsi haqqında biliklər sistemi mühüm yer tutur. Gənclər bu bilikləri dəqiq və təbiət fənlərini öyrənərək əldə edirlər. Təbiət elmləri ictimai elmlərlə birlikdə insanın - vətəndaşın dünyagörüşünün elmi əsasını təşkil edir. Vətəndaş dünyagörüşünün formalaşması gənclərdə dünyanın müasir elmi mənzərəsi – təbiət, cəmiyyət haqqında təsəvvürlərin yaradılmasını nəzərdə tutur. Gənclərdə vahid vətəndaş dünyagörüşünün formalaşması üçün təlim zamanı zəruri fənlərarası əlaqələrin qurulması böyük əhəmiyyət kəsb edir [9, 49].

İctimai fənlər vasitəsilə vətəndaş tərbiyəsi üç səviyyədə təmsil oluna bilər [3, 33]:

- Nəzəri hissə cəmiyyətin sosial sifarişi, fərdin tələbatları ilə müəyyən edilir; o özündə kursun (ictimai fənlər) əsasını təşkil edən konsepsiya və ideyaları ehtiva edir;

- Məzmun hissə özündə kursun məzmun hissəsinin praktiki həyata keçirilməsi üçün tərtib edilmiş proqramlar və metodiki tövsiyələr əsasında hazırlanmış tədris vəsaitlərini ehtiva edir;

- Fəaliyyət hissəsinə kursun məzmunu vasitəsi ilə vətəndaşlıq keyfiyyətlərinin tərbiyəsində müəllimin fəaliyyəti və şagird və tələbələrin özünü bir vətəndaş kimi formalaşdırmaq fəaliyyətləri daxildir.

Vətəndaş keyfiyyətlərinin uğurlu tərbiyəsi üçün aşağıdakılar zəruridir [9, 63] :

1. Tədqiqat və məhsuldar tədris metodları əsasında hazırlanmış seminarların həcminin artırılması. Bu cür seminarlar şagird və tələbələri fəallaşdırır, belə ki, onlar, yeni biliklərin "kəşf edilməsi" üçün müstəqil axtarış prosesində iştirak edərək problem xarakterli məsələləri həll edirlər;

2. Bütövlükdə bu fənnin və onun ayrı-ayrı hissələrinin öyrənilməsinin motivasiyasının, əhəmiyyətinin, habelə məqsədəuyğunluğunun dərk edilməsinin gücləndirilməsi;

3. Pedaqoqların işində sosioloji və diaqnostik metodların artırılması.

Aktual sosial problemlərə və sosial elm konsepsiyalarına dair mövcud tədris materiallarının zənginliyi ilə vətəndaş təhsili proqramlarının işə salınması üçün əsas vəzifələr aşagıdakılardır [3, 35]:

- effektiv tədris prosesinin təşkili üsullarının, texnologiyalarının və formalarının transformasiyası;

- təhsil müəssisələrində vətəndaş təhsilinin məqsədlərinə nail olmağı mümkün edən şəraitin yaradılması. Birinci vəzifənin həlli "vətəndaş təhsili" təhsil sahəsinin metodik sisteminin sərhədlərinin ayrılması ilə mümkündür. Bu sistemin spesifik xüsusiyyətləri aşağıdakılardır:

- "əməkdaşlıq qruplarına" diqqət yetirməklə, qrup iş formalarından intensiv istifadə;

- Şagird və tələbələrin müstəqil, xüsusən layihə iş formalarından geniş istifadəsi. Təhsil layihələrinin həyata keçirilməsi və əldə edilən nəticələrin tətbiqi sahəsi auditoriya, ali təhsil müəssisəsi, rayon, şəhər, reqionda mövcud real həyatdır;

- Şagird və tələbələrin materialda tərəqqisini qiymətləndirmək üçün xüsusi üsul və formalardan istifadə və başa çatmış layihələrin materialları, hazırlanmış hesabatlar və s. şəklində nailiyyətləri (təlim nəticələrini) təsbit emək;

- müasir informasiya texnologiyalarından (kompüter, kompüter şəbəkələri, mətn prosessorları və s.) istifadə. Bu, şagird və tələbələr tərəfindən hazırlanmış materialları sosial cəhətdən məqbul formada hazırlamağa imkan verir və video materialların istifadəsi tədris materialının görünməsi və etibarlılığı problemlərini həll etməyə imkan verir.

- şagir və tələbə gənclərin vətəndaş tərbiyəsinin səmərəliliyinin əsas

şərti onun sistemliliyidir və bu sistemə aşağıdakılar daxildir: vətəndaşlığın inkişaf səviyyələrinin diaqnostikasının məqsədi, vəzifələri, məzmunu, metodları, formaları və meyarları.

**Nəticə.** Bu gün orta və ali təhsil müəssisələrində gənclərlə aparılan tərbiyə işinin əsas məqsədini vətəndaş cəmiyyətində onların sərbəst inkişaf etməsinə imkan verən, hüquq və vəzifələrin bütün dolğunluğu ilə təmin edilmiş azad, demokratik dövlət vətəndaşının formalaşdırılması təşkil etməlidir. Uyğun olaraq hesab edirik ki, tərbiyə işinin əsas vəzifəsi kimi fəal vətəndaş mövqeyinə malik, öz hüquqlarından istifadə etməyi bacara bilən, buna can atan və öz əməllərinə görə tam məsuliyyət daşımağa hazır olan gənclərin formalaşdırılması çıxış etməlidir. Gənclik yaşının qeyd edilən xüsusiyyətləri (müstəqillik, qətiyyət, özünüifadəetmə istəyi, özünüanaliz, özünüqiymətləndirmə və s.) gənclərin vətəndaş identikliyinin formalaşmasının mühüm şərtlərindən biri kimi nəzərə alınmalı, orta və ali məktəblərdə tərbiyə işinin təşkili modelinin işlənib hazırlanmasında onlara istinad olunmalıdır.

**Problemin aktuallığı.** Gənclərdə vətəndaş identikliyini necə formalaşdırmaq olar, hansı şəxsi (daxili, subyektiv) amillər bu prosesə təsir göstərir, xaricdən təsir edən (obyektiv) amillər hansılardır? Gənclərin vətəndaş identikliyinin formalaşmasının şərt və amillərinin öyrənilməsi bizə orta və ali məktəblərin tərbiyə işində gənclərin vətəndaş identikliyinin formalaşdırılmasının optimallaşdırılması yollarını müəyyən etmək imkanı verir.

**Problemin elmi yeniliyi.** Məqalədə gənclərin vətəndaş identikliyinin formalaşmasını şərtləndirən başlıca amillər təhlil olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ümumtəhsil məktəb və kollec, habelə ali təhsil müəssisələri əməkdaşlarının gənc nəslin vətəndaş tərbiyəsi problemləri üzrə yenidən hazırlanma və ixtisasartırma qurumlarında praktikdir.

**ƏDƏBİYYAT**


1. Qədirov Ə.Ə. Yaş psixologiyası. Ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti. – Bakı: Maarif. – 2002. – s.386
2. Quliyev E.M., Əzimov Q.E., Əlizadə Ə.Ə. Yaş və pedaqoji psixologiya. Pedaqoji institut tələbələri üçün tədris vəsaiti.– Bakı: APİ, -1978. – s.94
3.Басюк.С.В.Формированиягражданина в изменяющейся социокультурной реальности: учеб.пособие. – Уфа: Бист. – 2013. – 82 с.
4. Безрукова О.Н. Социология молодежи.– Санкт -Петербург: -2004.–39 с.
5. Волков Ю.Г. Социология молодежи. Учебное пособие. – Феникс: - 2001. – 576 с.
6. Гиппенрейтр Ю.Б. Введение в обшую психологию. – Москва: - 1988 -320 с.
7. Гревцева Г.Я., Циулина М.В. Воспитания гражданина и патриота: теория и практика. Учебное пособие. – Челябинск: - 2014. – 300 с.
8. Иконникова С.Н. Молодежь. Социологический и социально – психологический анализ. – Ленинград, - 1974. – 164 с.
9. Яруллин И.Ф. Формирования гражданской ответственности студентов педагоги-

ческих вузов. – Казань: Хэтер. – 2011. – 183 с.
10. Здравомыслов. А.Г. Потребности. Интересы. Ценности. – Москва: - 1986. - 221 с.
11. Фахрутдинова. А.В. Формирование активной гражданской позиции студента в условиях единого образовательного пространства: зарубежный опыт // Казанский педагогический журнал. - 2010. - № 1. - с. 163-169.
12. Никандров. Н.Д. Современная высшая школа. – Москва: - 1998. - 279с.
13. Коджаспирова Г.М., Коджаспиров А.Ю. Педагогический словарь: Для студ. высш. и сред. пед. учеб. заведений. – Москва: Издательский центр «Академия». - 2001. – 176 с.
14. Лисовской, В.Т. Духовный мир и ценностные ориентации молодежи России. - СПб, 2000, - 519 с.

## ФАКТОРЫ ФОРМИРОВАНИЯ ГРАЖДАНСКОЙ ИДЕНТИЧНОСТИ МОЛОДЕЖИ

**И.А.ТЕЙМУРОВА**

### РЕЗЮМЕ

Статья посвящена одной из наиболее актуальных проблем современности – анализу факторов формирования гражданской идентичности молодежи, в том числе студенческой. В статье рассматриваются основные направления, сущность и педагогические условия формирования гражданской идентичности молодежи.

**Ключевые слова:** молодежь, молодежная политика, гражданская идентичность, гражданское общество, образование, воспитание, гражданское воспитание, гражданское образование

## THE FACTORS OF YOUTH CIVIL IDENTITY FORMATION

**İ.A.TEYMUROVA**

### SUMMARY

The article is devoted to one of the most topical problems of our time – the analysis of the factors of youth civil identity formation, including students. The article is being considered the main directions, essence and pedagogical conditions for the youth civil identity formation.

**Keywords:** youth, youth policy, civil identity, civil society, education, upbringing, civil upbringing, civil education

# MÜNDƏRİCAT

## HÜQUQ

**Əliyeva L.Ş.**
Gründnorm problemi və onun irsi ........................................................ 5
**Cəfərov İ.H.**
Hüquq düşüncəsinin növləri ........................................................ 20
**Hacıyev S.S.**
Rəqəmsal marketinqin milli bazarda mal və xidmətlərin təşviqi siyasətinin həyata keçirilməsinə təsiri ........................................................ 27

## PEDAQOGİKA

**Səfərli N.T.**
Naxçıvanda ali təhsilin dünəni və bu günü ........................................................ 33

## PSİXOLOGİYA

**Teymurova İ.A.**
Gənclərin vətəndaş identikliyinin formalaşması amilləri ........................................ 47

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Алиева Л.Ш.**
Проблема Gründnorm и её наследие .................................................................5
**Джафаров И.Х.**
Типы правового сознания ..............................................................................20
**Гаджиев С.С.**
Цифровой маркетинг в реализации политики продвижения товаров
и услуг на национальном рынке.....................................................................27

## ПЕДАГОГИКА

**Сафарли Н.Т.**
Прошлое и настоящее высшего образования в Нахчыване...........................33

## ПСИХОЛОГИЯ

**Теймурова И.А.**
Факторы формирования гражданской идентичности molодежи .................47

## CONTENTS

### LAW

**Aliyeva L.Sh.**
The Gründnorm problem and its legacy ........................................................... 5
**Jafarov İ.H.**
Typs of legal consciousness ....................................................................... 20
**Hajiyev S.S.**
Digital marketing in the implementation of the policy
of promoting goods and services on the national market .................................. 27

### PEDAGOGY

**Safarli N.T.**
The past and the present state of higher education in Nakhchivan...................... 33

### PSYCHOLOGY

**Teymurova İ.A.**
The factors of youth civil identity formation....................................................... 47